AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 1 (1346), 9 - 15 yanvar 2018-ci il

Qəzet 2001-ci ildən çıxır.

## ÖTƏN İL GÜLƏŞÇİLƏRİMİZ 294 MEDAL QAZANIBLAR



Yola saldığımız 2017-ci il də Azərbaycan güləşçiləri üçün uğurlu və yaddaqalan olub. Yığma komandalarımız iştirak etdikləri beynəlxalq turnir və çempionatlarda yüksək nailiyyətlər əldə ediblər. Güləş üzrə Azərbaycan yığmasının üzvləri 2017-ci ildə iştirak etdikləri beynəlxalq yarışlarda qazandıqları medallarla xalqımızı, idmansevərləri sevindiriblər. Belə ki, pəhləvanlarımız iştitrak etdikləri dünya və Avropa çempionatlarında və ölkəmizdə keçirilən IV İslam Həmrəyliyi Oyunlarında ümumilikdə, 99 medal qazanıblar. Bu medallardan 33-ü qızıl, 29-u gümüş, 37-i isə bürüncdür. Statistikaya nəzər salanda görürük ki, Azərbaycan güləşiləri ildən-ilə beynəlxalq yarışlarda qazandıqları medalların sayını artırırlar. Belə ki, 2009-cu ildən hesablamağa başlasaq, bunu çox aydın müşahidə etmiş olarıq: 2009-cu ildə - 47 medal, 2010-cu ildə - 66, 2011-ci ildə - 67, 2012-ci ildə - 71, 2013-cü ildə - 70, 2014-cü ildə - 65, 2015-ci ildə - 82, 2016-cı ildə - 86 və nəhayət, 2017-ci ildə 99 medal.

(ardı 5-ci səhifədə)

## Olimpizm

### Şimali Koreya idmançıları Pxençxan-2018 Olimpiadasında iştirak edəcəklər

Beynəlxalq Olimpiya Komitəsi (BOK) Koreya Xalq Demokratik Respublikası (KXDR) və Cənibi Koreya arasında şimali koreyalı idmançıların Pxençxan-2018 Olimpiadasında iştirakı ilə bağlı birbaşa danışıqların aparılması məsələsini alqışlayıb.

"Reuters" Agentliyinin yaydığı xəbərə görə, BOK-un nümayəndəsi tərəfləri tez bir zamanda danışıqlar stolu arxasında əyləşməyə çağırıb. Beynəlxalq qurumun nümayəndəsi BOK-un KXDR Milli Olimpiya Komitəsi ilə mütamadi danışıqlar apardığını da diqqətə çatdırıb.

Məlumat üçün bildirək ki, KXDR-nın rəhbəri Kim Çen In yeni il bayramı münasibətilə xalqa müraciətində bu ilin fevralında Cənubi Koreyada keçiriləcək XXIII Qış Olimpiadasının təşkilində qonşu ölkəyə uğurlar arzulayıb və şimali koreyalıların da bu idman tədbirində iştirakına ümid etdiyini bildirib. Cənubi Koreyanın prezidenti Mun Çje İn isə öz növbəsində KXDR liderinin bu fikrini alqışlayaraq öz dəstəyini bildirib.

Pxençxan-2018 Qış Olimpiya Oyunları bu ilin 9-25 fevralında keçiriləcək.

### Komandaların sayı artırılacaq

Beynəlxalq Hokkey Federasiyası (BHF) şurasının üzvü və Qadın Hokkey Təşkilatının rəhbəri Suzanna Kolbenhoyer Pekin-2022 Qış Olimpiadasında komandaların sayının 10-a qədər artırılacağı barədə məlumat verib.

Qeyd edək ki, XXIV Qış Olimpiadası çərçivəsində qadınlar arasında hokkey yarışları fevralın 10-dan 22-dək keçiriləcək. Turnirdə medal uğrunda 8 komanda yarışacaq.

BHF-nin konqresi şuranın Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında iştirak edəcək komandaların sayının 8-də 10-dək artırılması təklifini qəbul edib. Bu qərar 2019-cu ildən qüvvəyə minəcək

.

### Pekin-2022-nin emblemi təqdim olunub

Pekin-2022 Olimpiya Oyunları Təşkilat Komitəsi yarışların rəsmi emblemini ictimaiyyətə təqdim edib.

Olimpiya embleminin yuxarı hissəsində müxtəlif rəngli lentlərin köməyi ilə fiqurlu konkisürən təsvir olunub. Emblemin ortasında "Pekin-2022" yazısı, aşağı hissəsində isə Olimpiya halqaları əks olunub.

Qeyd edək ki, Çinin Pekin şəhəri Olimpiya Oyunlarına ikinci dəfə ev sahibliyi edəcək. İlk dəfə burada 2008-ci ildə Yay Olimpiya Oyunları təşkil edilib.

## AİJA 2017-ci ildə fərqlənənləri mükafatlandırıb

Səh. 2

***2017-ci ilə yekun vurub, yeni ilin ilk günlərini yaşayırıq. Yola saldığımız ildə bir sıra uğurları ilə diqqət mərkəzində olan "Olimpiya dünyası" qəzeti öz səhifələrində maraqlı yazıları ilə oxucularının görüşünə gəldi. Qəzetin həyata keçirdiyi layihələr bir daha sübüt etdi ki, "Olimpiya dünyası" idman nəşrləri arasında fərqlənir, liderliyini daim qoruyur.***

Qəzetin yola saldığımız ildə həyata keçirdiyi layihələrdən biri də çoxsaylı oxucularımız arasında idman mövzusunda keçirdiyi viktorinalardır. Məlumat üçün bildirək ki, ənənəvi xarakter alan viktorinalarda ölkənin bütün bölgələrindən olan oxucularımız iştirak ediblər.



## "Olimpiya dünyası" qəzeti daha bir viktorinaya yekun vurdu

Dekabr ayında "Olimpiya dünyası" daha bir viktorinaya yekun vurdu. Budəfəki viktorinada təxminən 100-dən artıq oxucu öz biliyini sınaqdan keçirdi. Cavablar redaksiyamıza elektron poçt və məktub şəklində göndərildi. Yekunda redaksiya heyəti tərəfindən bizə göndərilən cavablar yoxlanıldı. Ən tez və ən çox suala cavab verən oxucumuz müəyyənləşdi. Beləlikdə, budəfəki viktorinanın qalibi Şəfiqə Bayramova oldu. Qalib oxucumuza diplomu Avropa Gimnastika İttifaqının prezidenti Fərid Qayıbov təqdim etdi.

Bu, hələ son deyil. Qarşıda qəzetimiz yeni viktorinalarla oxucularının qonağı olacaq. Fərqli mövzularda tərtib etdiyimiz suallara cavab verib, bizdən hədiyyələr qazana bilərsiniz. Bizi izləyin.

## Anons

Federasiya ilin ən yaxşılarını mükafatlandırıb

Qrossmeysterimiz dünya şahmat tacı uğrunda yarışacaq

Səh. 2

Komandamız C qrupunda mübarizə aparacaq

Beynəlxalq turnirdə uğurlu nəticə

Şuşada voleybolu yenə də sevəcəklər

Səh. 5

Ecazkar, özünə sığışmayan, möhtəşəm, bir az da şıltaq Ronaldinyo...

Səh. 6

## Zöhrə Ağamirova Əlcəzair gimnastlarına master klas keçib



Bədii gimnastika üzrə milli komandamızın məşqçisi Lalə Məhərrəmova və gimnastımız Zöhrə Ağamirova master klas keçmək üçün Əlcəzairdə olublar.

Azərbaycan təmsilçiləri Afrika Oyunlarına hazırlaşan Əlcəzairin bədii gimnastika üzrə yığma komandasının üzvlərinə ustad dərsləri keçərək çıxış proqramlarına düzəlişlər ediblər.

Dərslər çərçivəsində məşqçimiz və gimnastımızla görüşən Əlcəzairin Bədii Gimnastika Federasiyasının prezidenti Zahi Sofiane onlara "Təşəkkür" plaketi təqdim edib.



## "Böyük dəbilqə" turnirində bürünc medal

Taekvondo üzrə Azərbaycan milli komandasının üzvü Milad Beigi Herçəqani Çində start götürən "Böyük dəbilqə" seriyalı turnirdə bürünc medal qazanıb. 80 kq çəki dərəcəsində mübarizə aparan idmançımız 1/4 finalda norveçli Riçard Andre Ordemanna 29:22 hesabı ilə qalib gəlib. Ardınca rusiyalı Maksim Xramtsova 6:19 hesabı ilə məğlub olan taekvondoçumuz üçüncü yer uğrunda görüşdə rusiyalı Anton Kotkov ilə qarşılaşıb. Rəqibindən 17:7 hesabı ilə üstün olan təmsilçimiz yarışı bürünc medalla başa vurub.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

"Uşaq və gənclərin fiziki və mənavi inkişafı"

## Tələbələrin fiziki sağlamlığının keşiyində dayanırıq ki, onlar cəsarətli və çevik olsunlar

Səh. 4

# AİJA 2017-ci ildə fərqlənənləri mükafatlandırıb

*Azərbaycan İdman Jurnalistləri Assosiasiyası (AİJA) 2017-ci ilin idman laureatlarını mükafatlandırıb. Tədbirdə çıxış edən AİJA-nın prezidenti Eldar İsmayılov ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışıb, idmançılarımızın beynəlxalq arenada qazandıqları nailiyyətlər barədə məlumat verib. 2017-ci ilin Azərbaycanın idman həyatında mühüm uğurlarla yadda qaldığını diqqətə çatdıran Eldar İsmayılov ölkəmizin IV İslam Həmrəyliyi Oyunlarına, Formula-1 Azərbaycan Qran-pri yarışlarına, qadın voleybol komandaları arasında Avropa çempionatına, eləcə də idmanın müxtəlif növləri üzrə dünya, Avropa çempionatlarına, beynəlxalq turnirlərə müvəffəqiyyətlə ev sahibliyi etdiyini vurğulayıb. O, milli komandamızın IV İslam Həmrəyliyi Oyunlarını birinci pillədə başa vurulmasını həmçinin idmançılarımızın bu ili 851 medalla başa vurmalarını Azərbaycanın idman ölkəsi olmasının sübutu kimi dəyərləndirib.*

AİJA-nın fəaliyyətindən söz açan Eldar İsmayılov bildirib ki, 1995-ci ildə yaradılan qurum Beynəlxalq İdman Mətbuatı Assosiasiyasında (AIPS) ölkəmizi uğurla təmsil edir. Assosiasiya 1996-cı ildən başlayaraq, idman mətbuatı və jurnalistləri arasında fərqlənənləri təltif edir.

Sonra qaliblərə mükafatlar təqdim olunub.

Bakı-2017 IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva ilin idman təşkilatçısı elan edilib.

Avropa Gimnastika İttifaqının prezidenti Fərid Qayıbov ilin idman xadimi seçilib. Azərbaycan Dövlət İnformasiya Agentliyi ilin idmanı ən yaxşı işıqlandıran informasiya agentliyi elan olunub. Anar Əhmədov ("Olimpiya dünyası"), Həbib Aslanov ("Futbol+"), Oqtay Bayramov ("Xalq qəzeti") və Vüqar Xeyrullayev (Apasport), Akif Ağayev ("Yeni həyat", Masallı) ilin idman jurnalistləri, Leyla Nağıbəyova ("Neftçi" futbol klubu) isə ilin fotoreportyoru nominasiyalarında mükafatlandırılıblar.



"Futbol+" ilin idman qəzeti, "CBC Sport" isə telekanallar sırasında fərqlənib. İlin idman nəşri nominasiyasında Əbülqasım Novruzovun müəllifi olduğu "Şuşada voleybolu sevirdilər..." kitabı qalib seçilib.

Laureatlar sırasında Azərbaycan Velosiped İdman Federasiyasının mətbuat xidməti, həmçinin "sport24.az" və "1news.az" veb-saytları da var.

Rio-2016 Olimpiadasının gümüş mükafatçısı, güləşçi Mariya Stadnik, IV İslam Həmrəyliyi Oyunlarının üçqat qalibi, bədii gimnast Marina Durunda, Bakı-2017-nin qalibi, taekvondoçu Patimat Abakarova, üçqat dünya çempionu, güləşçi Hacı Əliyev, üçqat dünya çempionu, boksçu Məhəmmədrəsul Məcidov və dünya çempionu, taekvondoçu Milad Beigi Herçəqani ilin idmançıları adına layiq görülüblər.

İlin komandası nominasiyasının qalibi "Qarabağ" futbol klubu, şahmat və cüdo üzrə milli komandalar olub.

"Qarabağ" futbol klubunun baş məşqçisi Qurban Qurbanov, qadın voleybolçulardan ibarət Azərbaycan millisinin çalışdırıcısı Faiq Qarayev və gənclərdən ibarət cüdo üzrə millimizin baş məşqçisi Elçin İsmayılov ilin baş məşqçiləri elan ediliblər.

İlin idman hakimi Hicran Şərifov (güləş), idman azarkeşi isə Elşən Məmmədov olublar.

Sonra bir qrup şəxsə AİJA-nın 2018-2019-cu il üçün vəsiqələri təqdim olunub.

## Formula-1

### Danimarka F-1 Qran-prisi 2020-ci ildə keçirilə bilər

Yanvarın 10-da Formula-1 yarışlarının icraçı direktoru Çeyz Keri Qran-prinin Danimarkada keçirilməsi imkanlarını müzakirə etmək üçün Kopenhagen meri Frenk Censenlə görüşəcək.

Görüşə sənaye naziri Brayan Mikkelson, texnologiyalar və inkişaf üzrə mütəxəssis Helqe Sander və Saxo Bankın keçmiş sahibi Lars Seyer Kristensen dəvət olunub. Söhbət keçmiş Formula-1 pilotu Yan Maqnussenin təşəbbüs qrupuna daxil olduğu və çəkilməsində iştirak etdiyi Kopenhagenin tarixi mərkəzindəki 4,5 kilometrlik yol xəttindən gedir. Yerli mətbuat görüləcək işlərin büdcəsini 40-65 milyon avro məbləğində dəyərləndirir. Bununla bağlı qərar fevralın 1-dək qəbul ediləcək. Müsbət nəticə əldə olunduğu halda Danimarka Qran-prisi 2020-ci ilin təqviminə daxil edilə bilər.

### "Nürburqrinq" yenidən Formula-1 yarışlarına ev sahibliyi etmək istəyir

Almaniya "Nürburqrinq" avtodromunun rəhbərliyi dünya çempionatının təşkilatçıları ilə danışıqlar aparıb. Avtodromun meneceri Mirko Markfort Formula-1 yarışlarının yenidən "Nürburqrinq"də keçirilməsini arzu etdiklərini bildirib. "Biz şad olarıq ki, 2019-cu ildə Formula-1 yenidən "Nürburqrinq"ə qayıtsın. Bu, o halda mümkün olar ki, biz məsələnin maliyyə tərəfini həll edək", - deyə Markfort əlavə edib.



O, avtodrom nümayəndələrinin Liberty Media ilə danışıqlar apardığını təsdiq edib. Bu danışıqlar Markroftun çempionatın rəhbəri Çeyz Keri ilə görüşdüyü Əbu-Dabi mövsümünün son yarışları zamanı keçirilib.

"Nürburqrinq"də yarışlar sonuncu dəfə 2013-cü ildə olub. Bu mövsümdə Almaniya Qran-prisi birillik fasilədən sonra dünya çempionatının təqviminə daxil ediləcək, lakin yarışların bu mərhələsi "Hokkenqhaymrinq" avtodromunda keçiriləcək.

# Əməkdaşlıq haqqında memorandum imzalanıb

Daxili İşlər Nazirliyi (DİN) ilə Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsində Agentliyin nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə ölkə ərazisində dopinq vasitələrinin qanunsuz dövriyyəsinin qarşısının alınması məsələləri müzakirə olunub.

Qeyd edilib ki, təmiz idmana ciddi ziyan vuran güclü təsir edən maddələrin idmançılar arasında istifadəsinin qarşısını almaq məqsədilə iki qurum arasında sıx əməkdaşlıq həyata keçiriləcək. Bu əməkdaşlığın antidopinq siyasətinin gücləndirilməsi üçün mühüm rol oynadığı bildirilib.

Dopinqlə mübarizə çərçivəsində antidopinq qaydalarına əsasən, araşdırmalar üzrə idmançılar və onlara dəstək heyəti barədə idmançıların ölkəyə giriş-çıxışı və digər məlumatların, həmçinin güclü təsir edən maddələrin qanunsuz dövriyyəsi ilə əlaqəli şəxslər barədə məlumat mübadiləsinin aparılması razılaşdırılıb.

Sonra DİN Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi, polis general-mayoru Həzi Aslanov və Azərbaycan Milli Antidopinq Agentliyinin direktoru Şəfəq Hüseynli əməkdaşlıq memorandumunu imzalayıblar.

## Ağırlıqqaldırma

# Federasiya ilin ən yaxşılarını mükafatlandırıb

Azərbaycan Ağır Atletika Federasiyasında (AAAF) 2017-ci ilin idman yekunları müzakirə edilib, ilin ən yaxşıları mükafatlandırılıb.

Mərasimdə AAAF-ın vitse-prezidentləri Tofiq Heydərov, Ruslan Xanverdiyev, baş katib Rizvan Rəsulov, federasiyanın Rəyasət Heyətinin üzvləri, həmçinin il ərzində fərqlənmiş idmançılar, onların məşqçiləri və mütəxəssislər iştirak ediblər.



AAAF-ın vitse-prezidenti Tofiq Heydərov 2017-ci ilin Azərbaycanın idman həyatında uğurlu olduğunu diqqətə çatdırıb. O, bildirib ki, ağırlıqqaldıranlarımız da il ərzində mühüm nailiyyətlər qazanıblar. O, IV İslam Həmrəyliyi Oyunlarında komandamızın üzvlərinin bir qızıl və üç bürünc medal qazanmalarından, Tailandda yeniyetmələr arasında dünya birinciliyində yığmamızın 9-cu pillədə qərarlaşmaqla gələn il Argentinada keçiriləcək Yeniyetmələrin Yay Olimpiya Oyunlarına lisenziya qazanmasından danışıb. Vitse-prezident həm də entyabrda Kosovonun paytaxtı Priştinada keçirilən Avropa birinciliyində yığmamızın medal sayına görə birinci pillədə qərarlaşmasını böyük uğur kimi qiymətləndirib.

Qeyd edilib ki, 2017-ci ildə ağırlıqqaldırmanın maddi-texniki bazasının gücləndirilməsi istiqamətində bir sıra addımlar atılıb, yeni zallar istifadəyə verilib, mövcud bazalarda əsaslı təmir-bərpa işləri aparılıb. Həmçinin AAAF yerli yarışların təşkilini daha yüksək səviyyədə təmin edib.

Uğurlu antidopinq siyasətinin tətbiqi nəticəsində bu mübarizədə böyük nailiyyətlərin əldə edilməsi ilə ağırlıqqaldırmanın əsas problemlərindən birinin həlli istiqamətində ciddi addımların atıldığını bildirən vitse-prezident bu baxımdan Azərbaycan Milli Antidopinq Agentliyinin fəaliyyətin yüksək qiymətləndirib.

Tədbirin sonunda 2017-ci ildə uğurlu fəaliyyətlərinə və əldə etdikləri nailiyyətlərə görə ilin ən yaxşı idmançı, məşqçi və hakimləri təltif olunublar.

AAAF rəhbərliyinin seçiminə əsasən, ilin ən yaxşı idmançıları nominasiyasında Səbinə Əzimova, Rövşən Fətullayev, Elnarə Abbasova, Hüseyn İsmayılov, Rüstəm Qasımov, Tarmenxan Babayev, Rəhman Kazımov, Elşən Məmmədov, Məhəmməd Məmmədli, Kənan Xəlilov seçiliblər. İlin kəşfi nominasiyasında idmançı Selcan Qarayeva, ən yaxşı məşqçisi isə Asif Məmmədov, Taleh Hüseynov, Şəfi Hüseynov mükafatlandırılıblar.

İlin hakimi adına Azad Mustafayev layiq görülüb.

İdmançılardan Tarmenxan Babayev, Rəhman Kazımov, Elşən Məmmədov, Elnarə Abbasova, məşqçilərdən Şəfi Hüseynov, Turan Abdullayev və Toğrul Məmmədliyə mənzillərin sertifikatları təqdim edilib.

# Xatirə turniri başa çatıb

"AAAF Park" Yaşayış Kompleksində Əməkdar məşqçi, beynəlxalq dərəcəli hakim Hacıbaba Əsgərovun xatirəsinə həsr olunmuş ağırlıqqaldırma üzrə respublika turniri keçirilib. Gənclər və idman nazirinin müavini, AAAF-ın vitse-prezidenti İsmayıl İsmayılov açılış mərasimində çıxış edərək Hacıbaba Əsgərovun ölkəmizdə idmanın ağırlıqqaldırma növünün inkişafındakı xidmətlərindən danışıb. O, ölkəmizdə idmanın bu növü üzrə atlet, məşqçi, hakim, mütəxəssis nəslinin yetişməsində əvəzsiz xidmətləri olan Hacıbaba Əsgərovun xatirəsinə həsr edilən turnirin əhəmiyyətini yüksək qiymətləndirib.

Hacıbaba Əsgərovun qızı Gülarə Nərimanova çıxışında atasının xatirəsinə göstərilən yüksək diqqət və qayğıya görə Gənclər və İdman Nazirliyinə, AAAF-a minnətdarlığını bildirib.

AAAF-ın vitse-prezidenti, "Zirvə" Beynəlxalq İdman Klubunun prezidenti Tofiq Heydərov ölkəmizdə idmana göstərilən diqqət və qayğı nəticəsində ağırlıqqaldırmanın da sürətlə inkişaf etdiyini bildirib. Azərbaycanda ağırlıqqaldırma idman növünün inkişafında xüsusi töhfəsi olan Hacıbaba Əsgərovun xatirəsinə həsr olunan turnirin əhəmiyyətini qeyd edən Tofiq Heydərov ölkə idmanının inkişafında xidmətləri olan şəxslərin xatirəsinin daim ehtiramla yad olunduğunu vurğulayıb.

Yarışda qadınlardan və kişilərdən ibarət yığma komandaların əsas üzvləri, həmçinin veteran atletlər iştirak ediblər.

Qaliblər Sinkleyr cədvəli əsasında müəyyən edilib.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışda qadınların mübarizəsində 157 kq (66+91) nəticə ilə 236,45 Sinkleyr xalı qazanan Səbinə Əzimova bütün rəqiblərini üstələyərək qızıl medala sahib olub. İkinci yeri 141 kq (63+78) nəticə və 222,76 xalla Mərziyyə Məhərrəmova, üçüncü yeri isə 157 kq (71+86) və 220,97 xalla Gülçin Əlizadə tutublar.

Kişilərin yarışında fəxri kürsünün ən yüksək pilləsinə Rövşən Fətullayev çıxıb. IV İslam Həmrəyliyi Oyunlarının bürünc mükafatçısı bu yarışda toplam 360 kq (160+200) çəkinin öhdəsindən gəlib və 399,92 xalla turnirin qalibi adını qazanıb. İkinci yerə 274 kq (121+153) nəticə və 384,81 xalla Məhəmməd Məmmədli, üçüncü yerə isə 288 kq (127+161) nəticə və 372,04 xalla Kənan Əliquliyev layiq görülüblər.

Ustad ağır atletlərin mübarizəsində 233 kq (103+130) nəticə və 346,98 xalla Zəfər Tağıyev yarışın qalibi olub. Gümüş medala 150 kq (70+80) nəticə və 339,05 xalla Akif Alıyev, bürünc medala isə toplam 255 kq (110+145) nəticə və 335,92 xalla Natiq Həsənov layiq görülüblər.

Qalib və mükafatçılara, eləcə də bir qrup şəxsə diplom, medal və xatirə hədiyyələri təqdim olunub.

## Şahmat

### Qrossmeysterimiz dünya şahmat tacı uğrunda yarışacaq

Martın 10-dan 28-dək Almaniyanın paytaxtı Berlində keçiriləcək turnirdən sonra norveçli Maqnus Karlsenlə dünya şahmat tacı uğrunda mübarizə aparacaq qrossmeysterin adı məlum olacaq.

14 raunddan ibarət turnirdə dünyanın səkkiz aparıcı qrossmeysteri iştirak edəcək. Dünya vitse-çempionu titulunun sahibi kimi 2018-ci ildə iddiaçılar arasında turnirə vəsiqə almış Sergey Karyakin ilə yanaşı, azərbaycanlı qrossmeyster Şəhriyar Məmmədyarov da yarışda iştirak edəcək. Şahmatçımız FİDE-nin Qran-pri yarışlarında uğurlarına görə turnirdə iştirak etmək hüququ qazanıb.



2017-ci ildə FİDE-nin ən yüksək orta reytinqinə malik olan amerikalı Fabiano Karuana və Uesli So, FİDE-nin Qran-pri yarışlarında ikinci yeri tutan rusiyalı Aleksandr Qrişuk, 2017-ci il Dünya kubokunun finalçıları Levon Aronyan və çinli Din Lijen, həmçinin təşkilatçıların namizədi - rusiyalı şahmatçı Vladimir Kramnik də Berlinə gedəcək.

Dünya çempionu titulu uğrunda matç noyabrın 9-dan 28-dək Londonda keçiriləcək.

### Dünya çempionatı komandamız üçün uğursuz oldu

Səudiyyə Ərəbistanın Ər-Riyad şəhərində keçirilən şahmatın rapid növü üzrə şəxsi dünya çempionatı başa çatıb. Yarış Azərbaycan millisinin üzvləri üçün uğurlu olmayıb. Komandamızın heyətində ən yaxşı nəticəni Rauf Məmmədov göstərib. O, 15 matçdan 10 xal toplamaqla 8-ci yeri tutub. Qədir Hüseynov da komanda yoldaşı ilə eyni xal toplasa da əlavə göstəricilərə görə 9-cu olub. Hər 2 şahmatçımız ilk "üçlük"dən 0,5 xal geri qalıb. Digər şahmatçılarımızdan Şəhriyar Məmmədyarov 23-cü, Eltac Səfərli 24-cü (hər ikisi 9 xal), Rəsul İbrahimov 94-cü (7), Arkadi Naydiç 101-ci (6,5) pillədə qərarlaşıb.

Qadınların mübarizəsində isə Ülviyyə Fətəliyeva komanda yoldaşları arasında ən yaxşı nəticəni göstərib. O, 10 xalla 7-ci olub. Türkan Məmmədyarova 9 xalla 16-cı, Gülnar Məmmədova 8 xalla 36-cı, Zeynəb Məmmədyarova 7 xalla 63-cü və Günay Məmmədzadə 6,5 xalla 77-ci yeri tutub.

### Şəhriyar Məmmədyarov üçüncü pillədədir

Beynəlxalq Şahmat Federasiyası (FIDE) şahmatçıların 2018-ci ilin yanvar ayı üçün reytinq siyahısını açıqlayıb.

Azərbaycan şahmatçısı, üçqat Avropa çempionu Şəhriyar Məmmədyarov üçüncü sıradakı mövqeyini daha da möhkəmləndirib. Şahmatçımız əmsalını 2804 xala çatdırıb. O, FIDE-nin dekabr ayı üçün reytinq siyahısındakı əmsalını 5 xal yaxşılaşdırıb.

Digər şahmatçılarımızdan Teymur Rəcəbov (2748) dekabr ayı ilə müqayisədə iki pillə geriləyərək 19-cu sırada qərarlaşıb. Öz əmsalını və mövqeyini qoruyan Rauf Məmmədov (2709) 40-cı, iki pillə irəliləyən Arkadi Naydiç (2701, ötən ay 2705) isə 41-ci sıradadırlar.

Reytinq siyahısına hazırkı dünya çempionu, norveçli Maqnus Karlsen (2837) başçılıq edir. ABŞ şahmatçısı Fabiano Karuana isə 2811 xalla ikinci yerdədir.

### Masters turnirində 22 zəka sahibi iştirak edir

Bakıda Fuad Cəfərov Memorialı çərçivəsində beynəlxalq Masters turniri keçirilir. Turnirdə 22 şahmatçı, o cümlədən 7 qrossmeyster iştirak edir. Yarışda Azərbaycan şahmatçıları ilə yanaşı, Gürcüstan, İran və Rusiya təmsilçiləri də mübarizə aparırlar. Memorial çərçivəsində 5 turnir keçirilir. FIDE beynəlxalq normalı turnir İsveçrə sistemi üzrə keçirilir və 9 turdan ibarətdir. Open-turnirdə isə 139 şahmatçı İsveçrə sistemi üzrə 7 turda mübarizə aparır. 2008-ci il təvəllüdlü və ondan kiçikyaşlı 58 şahmatçının iştirak etdiyi uşaq turniri İsveçrə sistemi üzrə keçirilir və 7 turdan ibarətdir. "Sürətli şahmat" yarışında 40, blits-turnirdə 33 komanda iştirak edir.

Fuad Cəfərov Memorialı Respublika Şahmat Mərkəzində keçirilir.

## Qarışıq dialoq

**_“Olimpiya dünyası” qəzeti hər zaman maraqlı rubrikaları ilə çoxsaylı oxucularının görüşünə gəlib. Qəzetimizin bu ənənəsi 2018-ci ildə də davam edəcək. Bu dəfəki yeni rubrikamızın adı “Qarışıq dialoq”dur._**

**_Belə ki, müsahib qismində olan tanınmış idmançılarımız redaksiyamıza gələrək, “Qarışıq dialoq”un qonağı olacaq, müdaxiləmiz olmadan biri-birlərinə suallar verərək, maraqlı cavablar alacaqlar. Bu zaman onların, necə deyərlər, həm jurnalist bacarıqları, həm sevimli məşğuliyyətləri, arzu və istəkləri, həm də ilk baxışdan görünməyən tərəfləri üzə çıxacaq. Qəzetimizin yeni rubrikasının ilk qonaqları Rio-2016 Yay Olimpiya Oyunlarının cüdo üzrə gümüş mükafatçısı, Avropa çempionu Rüstəm Orucov və onun komanda yoldaşı I Avropa Oyunlarının gümüş medalçısı, dünya çempionatının gümüş və bürünc mükafatçısı, IV İslam Həmrəyliyi Oyunlarının qalibi Orxan Səfərovdur. Yığma komandanın aparıcı qüvvələrindən olan hər iki idmançının “Qarışıq dialoq”unu oxucularımıza təqdim edirik._**

# Orxan Səfərov: “Olimpiya çempionu olmaq arzu deyil, o bir məqsəddir”



# Rüstəm Orucov: “Mənim əsas məşğuliyyətim cüdodur”

***Qeyd:*** *Əvvəl hər iki idmançımız bir qədər tərəddüd etdi. Çünki sual vermək asan olduğu qədər də çətindir. Lakin Rüstəm Orucov özündə güc tapıb təşəbbüsü ələ aldı.*

***- Orxan, idmanla nə vaxtdan məşğul olursan?***

- İdmanla məşğul olmağa 1998-ci ildə Sankt-Peterburq şəhərində başlamışam. Həmin vaxt 7 yaşım var idi.

***Qeyd:*** *Orxan həyəcanını gizlətmirdi. Buna görə də öz həmkarına eyni sualla müraciət etdi.*

***- Bəs, sən nə vaxt başlamısan?***

- 1999-cu ildə.

**- O.S.:** Rüstəm, bu çətin suala çox “ətraflı” cavab verdin. Əhsən (gülür). Bir də elə sual ver ki, bir az çətinlik çəkim. Fikirlərimi toplaya bilim.

***- R.O.: Yaxşı. Onda sənə çətin bir sualım var. Nə vaxt evlənirsən?***

**- O.S.:** (Bir anlıq araya süküt çökdü. Görünür, Rüstəmin bu sualı, doğrudan da, Orxanı çətinə salmışdı) - Görək də. İnşallah, yaxın vaxtlarda...

***- O.S.: Sən özün evlisən. Artıq bu ağır yükün məsuliyyətini hiss etmisən. Sirr deyilsə, evlilik həyatın necə gedir?***

**- R.O.:** Ailə qurandan sonra çox dəyişmişəm. Nə yaxşı ki, vaxtında evlənib, ailənin nə olduğunu və ailə başçısının hansı məsuliyyəti daşıdığını hiss etmişəm. Orxan, məsləhətdi, çalış tez evlən, vaxt itirmə. Sonra gec olar.

## “Üç fincan çay”la “11 dəqiqə” mütaliə

***- R.O.: Ən çox sevdiyin film hansıdır?***

**- O.S.:** 1+1 filmi. Baxmısan?

**- R.O.:** Elə mənim də. Çox təsirli filmdir. İndiyə qədər həmin film gözümün önündə canlanır.

***- O.S.: Axırıncı dəfə yolun nə vaxt kinoteatrdan düşüb?***

**- R.O.:** İnanırsan ki, yadımda deyil. Təxminən 2-3 ay bundan əvvəl getmişəm.

***- R.O.: Axırıncı dəfə nə vaxt kitab oxumusan?***



**- O.S.:** Buyaxınlarda Qreq Mortensonun “Üç fincan çay” kitabını oxumağa başlamışam. Nə vaxt bitirəcəyimi isə bilmirəm (gülür). Lakin mənə ən maraqlı gələn Paylo Koelyonun “11 dəqiqə” kitabıdır. Onun üçün vaxt itirməyə dəyər.

***- O.S.: Sən axırıncı dəfə kitab nə vaxt oxumusan?***

**- R.O.:** Səndən fərqli olaraq, mən əsasən kitabları internetdən oxuyuram.

***Qeyd:*** *Onların qarşılıqlı dialoqunda idmançılar idmandan kənar verilən sualların qurulmasında, doğrudan da, çətinlik çəkirdilər. Sonrakı dəqiqələrdə hər iki idmançı sualları öz sahələrinə yönəltdilər. Öz sahələri üzrə verilən suallardan sonra cavablar da maraqlı oldu.*

***- R.O.: Ən çox xoşladığın idman firması hansıdır?***

**- O.S.:** İdman ayaqqabılarında “Nike”ı, geyimlərdə isə “Adidas”ı bəyənirəm.

***- O.S.: Sən hansı firmanın geyimlərini bəyənirsən?***

**- R.O.:** Mən bütövlükdə “Nike”yə üstünlük verirəm.

***- R.O.: Orxan, sevmədiyin sual hansıdır?***

**- O.S.:** Ən sevmədiyim suallardan biri, “IV İslam Həmrəyliyi Oyunlarında verilən pulları hara xərclədin?”- sualıdır. Peşəkar idmançı olmayıb, lakin özünü idmançı kimi göstərən “idmançılar” barədə məndən nəsə soruşanda da heç xoşum gəlmir.

**- O.S.:** Yəqin ki, sənin də sevmədiyin suallar var.

***- R.O.: İnan ki, mənə də “İslam Həmrəyliyi Oyunlarından qazandığın pulu hara xərclədin?” - sualı dəfələrlə verilib. Bir az söhbət edən kimi fürsət tapıb o sualı verirlər. Bir Allah bəndəsi, soruşmur ki, sənin zədən nə qədər ciddidir? Ya da bu pilləyə çatmaqdan ötrü hansı çətinlikləri keçmisən?***

**- O.S.:** O sevmədiyin sualı sənə versəm, nə cavab verərdin? (gülür)

**- R.O.:** Ev almışam.

***- R.O.: Bəs sən?***

**- O.S.:** Bir kəlmə. Xeyir işlərə xərclədim.

***- O.S.: Rüstəm, düzünü de, neçə yaşına qədər Şaxta babanın varlığına inanmısan?***

**- R.O.:** Desəm gülməli çıxacaq. Vallah, elə indi də inanıram. Bəlkə də, sən Şaxta babaya məndən daha çox inanırsan.

**- O.S.:** Öz yükünü mənim boynuma qoyma. Mən heç vaxt Şaxta babaya inanmamışam.

## “Azərbaycan filmlərindən sitatlar gətirməyi xoşlayıram”

***- O.S.: Rüstəm, əvvəllər Rusiyada yaşamısan. Yeni il Rusiyada daha maraqlıdır, yoxsa bizdə?***

**- R.O.:** Rusiyada yaşayan vaxtlarda uşaq idim, şəhərə çox az çıxırdım. Yeni ili daha çox evimizdə və pəncərədən baxmaqla qarşılayırdım. Orda qar çox yağır. Bərk şaxta olur. Bu isə Yeni ilə bir başqa bəzək verirdi. Bizdə də qar yağsa, yeni il daha maraqlı olar.

***- R.O.: Ən böyük arzun nədir?***

**- O.S.:** Şəxsi yaxtamın olması.

**- R.O.:** Mən elə bildim, deyəcəksən ki, Olimpiya çempionu olmaq ən böyük arzumdur.

**- O.S.:** Olimpiya çempionu olmaq arzu deyil, o bir məqsəddir. Arzuya çatmaq üçün məqsədinə nail olmalısan.

***- O.S.: Bəs sənin ən böyük arzun nədir?***

**- R.O.:** Uşaqlarımın sağlamlığı.

***- O.R.: Azərbaycan filmlərinə baxırsan?***

**- R.O.:** Xeyr. Baxmamışam. Məndən fərqli olaraq, sən baxarsan.

**- O.S.:** “Ögey ana” filminə çox baxmışam. Ən çox “Bəyin oğurlanması” filmini bəyənmişəm. İndi etdiyimiz zarafatlar hələ o vaxt həmin filmdə olub. Sözarası Azərbaycan filmlərindən sitatlar gətirməyi də xoşlayıram.

***- O.S.: Ən yadda qalan qələbən hansıdır?***

**- R.O.:** Rio Olimpiadasındakı yarımfinal görüşüm. Həmin görüşdə qalib gəlməklə, ən azı gümüş medalı özümə təmin etdim.

**- O.S.:** 2013-cü ildə dünya çempionatında üçüncü yerə çıxmağım da mənim ən yadda qalan uğurumdur. Həmin yarışda sevindiyim qədər heç bir yarışda sevinməmişdim.

***- R.O.: Orxan, gələcək yarışlarda 60 kq çəkidə deyil, 66 kq çəkidə yarışacaqsan. Belə olan halda Tokio Olimpiadasına sən gedəcəksən, yoxsa Nicat Şıxəlizadə?***

**- O.S.:** Çəkimi təzə artırmışam. İnşallah, görək 66 kq çəkidə necə olur. Qismət. Tokio Olimpiadasına kimin gedib-getməyəcəyini zaman göstərəcək.

***- O.S.: Hidayət Heydərov da sənin çıxış etdiyin çəkidə əsas rəqiblərindən biridir. Bəs 73 kq çəkidə Tokio-2020-yə kim gedəcək, sən yoxsa Hidayət?***

**- R.O.:** Bunu zaman göstərəcək

***- O.S.: Rüstəm, niyə futbol oynaya bilmirsən?***

**- R.O.:** Uşaq vaxtı problemlərim var idi. Mənə “qırxayaq” deyirdilər.

**- O.S.:** Rüstəm, biz həmişə səninlə bir meydanda olanda, qol vurmaqdan çox, özümüzü səndən qorumaq barədə düşünürük.

***- R.O.: Belə çıxır ki, sən özünü istedadlı futbolçu hesab edirsən? (gülür).***

**- O.S.:** Mən uşaq vaxtı yaxşı futbol oynayırdım. O vaxtı məhəlləmizə gəlib, ən yaxşı futbol oynayan uşaqları seçirdilər. Hətta bir dəfə məni də seçmişdilər. Lakin sonradan cüdoya keçdim. Əgər cüdoya gəlməsəydim, çox güman ki, futbolçu olacaqdım. Özü də yaxşı futbolçu...

***- O.S.: Hansı kluba azarkeşlik edirsən?***

**- R.O.:** “Qarabağ”a. Amma əvvəllər İspaniyanın “Real” klubuna azarkeşlik edirdim.

**- O.S.:** Mən isə uşaq vaxtımdan “Milan”ın azarkeşi olmuşam.

***- O.S.: Ən sevdiyin futbolçu hansıdır?***

**- R.O.:** Kriştianu Ronaldo. Onun xəstə uşaqlara yardım etməsi təqdirəlayiqdir. Fikrimcə, Ronaldo hər bir sahədə nümunəvi futbolçudur.

***- R.O.: Sənin ən çox bəyəndiyin futbolçu hansı olub?***

**- O.S.:** Kaka. Yəqin ki, tanıyırsan.

## “Məndən biznesmen olmaz”

***- O.S.: Gələcəkdə idman karyeranı başa vurduqdan sonra nə işlə məşğul olmağı düşünürsən?***

**- R.O.:** Mənim əsas məşğuliyyətim cüdodur. Karyeramı bitirdikdən sonra ya məşqçi, ya federasiyada, ya da nazirlikdə idmanla bağlı bir işlə məşğul olmaq istəyərəm. Məndən biznesmen olmaz.

***- R.O.: Sən özünü gələcəkdə harada görürsən?***

**- O.S.:** Özümü elə cüdoda görürəm. Mənim arzum gələcəkdə öz adıma cüdo akademiyası açmaqdır. Çalışacağam ki, karyeramı başa vurduqdan sonra bu arzumu reallaşdırım. İdmanda qazandığım pulları ora yatırmaq istəyirəm.

***- O.S.: Rüstəm, valideynlər övladlarına həmişə “Özün valideyn olarsan, onda hər şeyi bilərsən”-deyirlər. İndi özün valideyn olmusan. Səncə, böyüklər nəyə işarə edirdilər?***

**- R.O.:** İnanırsan, hələ də heç nə bilmirəm. Qızım Safiya hələ balacadır deyə hər şey çox rahatdır.

***- O.S.: Ata olaraq, valideyn məsuliyyəti çox ağır deyil ki?***

**- R.O.:** Xeyr. Əksinə uşaqla oynamaq istirahətdir, insan çox rahat olur. Bunu sənə necə başa salım? Başına gələr, bilərsən.

***- O.S.: Müəyyən vaxta qədər maddi imkana görə məşq etmisən ki, şəraitini qurasan. Bəs nə vaxtdan nəticəyə görə məşq etməyə başladın?***

**- R.O.:** 2016-cı ildə bank kreditim var idi, yadına gəlir? Dollarla kredit götürmüşdüm. Sonra dolların məzənnəsi qalxdı. Banka 60 min dollar borcum var idi. Evin pulunu verə bilmirdim. Hətta evi satmaq istəyirdim. Avropa çempionatına getdim, birinci yeri tutdum. Sonra özümə ev aldım. Borclarımı qaytardım. Ondan sonra rahatlaşdım. Şükür, indi hər şey yaxşıdır.

**- R.O.:** Özün verdiyin suala indi özün də cavab ver.

**- O.S.:** 2015-ci ildən başlayaraq, I Avropa Oyunlarından sonra artıq nəticəyə görə güləşirəm. Nəticə əldə edirəmsə, mənə diqqət və qayğı da göstəriləcək. Biz idmançılar üçün nəticə hər şeydən yüksəkdə olmalıdır.

***- R.O.: Səni nə kövrəldə bilər?***

**- O.S.:** Çox şeydən kövrələ bilərəm. Xaraktercə çox həssasam. Məsələn küçədə yaşlı birinin nəsə satması və yaxud sədəqə istəməsi məni çox kövrəldir. Heç vaxt uşaq evinə getməyə ürək eləməmişəm. Onların məsum baxışlarını görsəm, uzun müddət özümə gələ bilmərəm. Bilmirəm, fikrimi sənə başa sala bildim, ya yox.

***- O.S.: Bəs Rüstəmi nə kövrəldər?***

**- R.O.:** Mən ən çox balaca uşaqların böyüklərin işini görməsi ilə barışa bilmirəm. Axı onların heç bir günahı yoxdur. Onlar uşaqlığını yaşamalıdırlar.

***- R.O.: Özündə bəyənmədiyin xüsusiyyət nədir?***

**- O.S.:** Qabaqcadan danışmaq. Həmişə qabaqcadan nəyisə deyirəm amma mənə düşmür.

***- O.S.: Bəs sənin?***

**- R.O.:** Özümdə bəyənmədiyim xüsusiyyət rusdilli olduğum üçün Azərbaycan dilində ləhçə ilə danışmağımdır. Hətta danışanda utanıram. İstəyirəm ki, bu problemimi biryolluq aradan qaldırım.

***- R.O.: Cüdo sənin üçün nədir?***

**- O.S.:** Cüdo mənim üçün hər şeydir. Həyatda hər şeyi cüdonun sayəsində qazanmışam.

***- O.S.: Sən necə cavab verərdin öz sualına?***

**- R.O.:** Cüdo mənim məşğuliyyətim, işim və həyat tərzimdir.

***Hazırladı:***
***Azər Əlizadə***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

# Tələbələrin fiziki sağlamlığının keşiyində dayanırıq ki, onlar cəsarətli və çevik olsunlar

***Təhsil müəssisələrində bədən tərbiyəsinin əsas təşkil forması dərsdir. Bədən tərbiyəsi dərsləri cədvəl üzrə həftədə iki dəfə aparılır. Dərslərdə şagirdlərə hərəkət keyfiyyətləri (sürət, qüvvə, çeviklik, dözümlülük) və hərəkət fəaliyyətinə dair (əmək, vətəni müdafiə, idman və s.) lazımi bilik, bacarıq və vərdişlər aşılanır.***

***Bədən tərbiyəsi dərsləri hazırlayıcı, əsas və tamamlayıcı hissədən ibarətdir. Bunların da hər birinin özünəməxsus məqsəd və vəzifələri vardır. Müəllim həmin məqsəd və vəzifələrə uyğun fiziki hərəkətlər və oyunlar seçir, yeri gəldikdə onları dərsin ayrı-ayrı mərhələlərində şagirdlərə öyrədir. Məqsədə nail olmaq üçün dərs pedaqoji-psixoloji cəhətdən düzgün qurulmalıdır. Dərsin keyfiyyətini yüksəltmək üçün müəllim tədris materiallarını dərindən öyrənməli, materialları ardıcıllıqla tədris etməli və təlim üsullarını düzgün müəyyənləşdirməlidir. Bununla yanaşı, dərs maraqlı qurulmalı, şagirdlərin fəallığı şəraitində keçirməlidir, tədris günü rejimində digər fənlərlə müvafiq qaydada növbələşdirilməlidir.***



Hazırda respublikamızda fəaliyyət göstərən orta ixtisas və ümumtəhsil müəssisələrində də idmana xüsusi diqqət yetirilir. Bu sahəyə diqqət yetirilən ali təhsil ocaqlarından biri də Bakı Texniki Kollecidir.

Məlumat üçün bildirək ki, Bakı Texniki Kolleci 1996-cı ildə Bakı Politexnik və Bakı Maşınqayırma texnikumlarının birləşdirilməsi əsasında yaradılıb. Kollecin rəhbərliyi tərəfindən maddi-texniki bazanın yaxşılaşdırılması istiqamətində lazımi işlər görülüb. Yaradılan bu imkandan yararlanan təhsil ocağında tədris və idman işləri əvvəlki qaydada davam etdirilir. Burada müxtəlif növlər üzrə daxili yarışlar təşkil olunur. Təhsil ocağının idmançıları Nizami rayonunun Gənclər və İdman İdarəsinin keçirdiyi bütün yarışlarda fəal iştirak edirlər.

Azərbaycan Texniki Universitetinin nəzdinə verilən Bakı Texniki Kollecində idmanın yüksək səviyyədə təbliğ edildiyinin şahidi olduq. İdman kafedrasının yerləşdiyi mərtəbədə Azərbaycanın və kollecin idman həyatını özündə əks etdirən foto-stendlər buna nümunədir.

Bütün bunların həyata keçirilməsində fiziki tərbiyə və gənclərin çağırışa qədərki hazırlığı fənn birliyinin sədri Aydın Kazımbəyovun xüsusi rolu var. Sərbəst güləş üzrə SSRİ idman ustası, respublikanın fəxri bədən tərbiyəsi və idman işçisi olan Aydın Kazımbəyov təcrübəli müəllim, bacarıqlı pedaqoqlardan biridir.

Aydın müəllim əvvəlcə pedoqoji fəaliyyətin xüsusiyyətlərindən danışdı. O bildirdi ki, bütün təhsil müəssisələrində təhsil alan tələbələrin fiziki və mənəvi tərbiyəsinin inkişafında fiziki tərbiyə fənninin xüsusi rolu var.

## “Sağlamlığın qorunması nəzəri biliklərlərdən başlayır”

“Bədən tərbiyəsi dərslərində şagirdlər fiziki tərbiyə, idman, gün rejimi, sağlamlığın qorunması barədə nəzəri biliklərə yiyələnirlər. Qeyd etmək lazımdır ki, şagirdlərin nə üçün bədən tərbiyəsi ilə məşğul olduğunu, bədən tərbiyəsi və idmanın məna və əhəmiyyətini, onun orqanizmə müsbət təsirini başa düşməsi böyük təlim-tərbiyəvi əhəmiyyətə malikdir. Bu, bir tərəfdən bədən tərbiyəsi məşğələlərinə şagirdlərin marağını artırırsa, digər tərəfdən onların bədən tərbiyəsi dərslərinə şüurlu münasibətini yüksəldir.

Bədən tərbiyəsi dərslərində həyat üçün vacib olan bir sıra hərəkətlər öyrədilir. Məsələn, yeriş, qaçış, müvazinət saxlamaq, tullanmalar, cisim atmalar, qamətin formalaşması üçün hərəkətlər və s. Həmin hərəkətlər üzrə bacarıq və vərdişlərə sahib olmaq şagirdlərin gündəlik həyatı üçün 2 cəhətdən əhəmiyyətlidir:

1. Şagirdlərin gündəlik həyatda, gün rejimində qarşıya çıxan çətinlikləri aradan qaldırmaqla yanaşı, həm də bu istiqamətli işdə (yazı yazmaq, məktəbdə ictimai-faydalı əməklə məşğul olmaq, valideynlərinə əmək xarakterli işlərdə kömək göstərmək, turist yürüşləri, ekskursiyalar dövründə maneələri keçmək, kələ-kötür yerləri gəzmək, dağlara qalxmaq, enmək və s.) xüsusi müvəffəqiyyətlər də əldə edirlər.

2. Bədən tərbiyəsi dərslərində ayrı-ayrı fiziki hərəkət və mütəhərrik oyunlar üzrə qazanılmış bilik, bacarıq və vərdişlər ümumtəhsil məktəbi sistemində tədris olunan əmək təlimi, təbiətşünaslıq və s. fənlərin təlim keyfiyyətinin yüksədilməsinə kömək edir. Məsələn, məlumdur ki, şagirdlər ibtidai siniflərdə ümuminkişaf, dırmanma və qamət üçün hərəkətlər icra edirlər. Həmin hərəkətlər orqanizmə sağlamlaşdırıcı təsir göstərməklə bərabər, eyni zamanda, şagirdlərdə mütəhərrikliyi, müvazinət hərəkətlərini inkişaf etdirir, bədənin elastikliyini (əyilmə-qalxma və bədənin ayrı-ayrı hissələrinin dairəvi hərəkətləri, çöməlmə və yarımçöməlmələr, qıçları dizdən bükmək şərti ilə qolların yana, sağa və sola yellədilməsi və bir çox hərəkətlər) artırır. Öz-özlüyündə aydındır ki, bədən tərbiyəsi dərslərində qazanılmış bu cür qabiliyyətlər, əmək dərslərində əl işlərinin qısa vaxt ərzində daha sürətlə yerinə yetirilməsi üçün çox vacibdir. Başqa bir misal: bədən tərbiyəsi dərslərində bilək, qol və kürəklərin qüvvəsinin artırılması məqsədilə öyrədilən fiziki hərəkətlər, zehni iş tələb edən dərslərin (ana dili, riyaziyyat) tədrisində yazı yazarkən, şagirdlərin vaxtından əvvəl yorulmasının, ruh düşkünlüyünün və əzginliyinin qarşısını alır.

Görkəmli pedaqoq A.S.Makarenko bu məsələyə xüsusi diqqət yetirmiş və oyunların, yerinə yetirilən müxtəlif növ fiziki hərəkətlərin kiçik məktəbyaşlı uşaqların ictimai və şəxsi həyatında mühüm rolunu dəfələrlə qeyd etmişdir.

A.S.Makarenko oyunun, uşaqların həyatındakı mahiyyətini belə səciyyələndirir: “Yaşlı adamın həyatında iş, fəaliyyət, qulluq nə kimi əhəmiyyətə malikdirsə, uşağın da həyatında oyun o qədər vacib və əhəmiyyətlidir”, - deyə Aydın müəllim öz fikirini bu sitatla tamamladı.

## “Bədən tərbiyəsi müəllimi şagirdlərin məktəbdənkənar işlərinə diqqətlə yanaşmalıdır”

Mütəxəssislərin fikrincə, bədən tərbiyəsi yetişməkdə olan gənc nəslin formalaşması, əməyə, həyata, əməli fəaliyyətə hazırlanması, ailəyə yaxından kömək kimi mühüm məsələlərin yerinə yetirilməsinə xidmət edir. İdman uşaqların sağlamlığı ilə bərabər, onların harmonik inkişafına da şərait yaradır, şagirdlərdə doğma məktəbin, vətənin şərəfini müdafiə etmək kimi müsbət keyfiyyətlər tərbiyə edir.

Fiziki hazırlıq məktəb və ailə tərbiyəsi ilə sıx əlaqədə olub, vəhdət təşkil etməlidir. Şagirdlər məktəbdə bədən tərbiyəsi proqramına müvafiq yiyələndikləri vərdiş və bacarıqları məktəbdənkənar müəssisələrdə təkmilləşdirirlər. Həmin müəssisələrdə şagirdlər üçün, ilk növbədə, kütləvi idman növləri ilə yanaşı, məktəbdə təşkil edilməsi çətin olan, yaxud da heç mümkün olmayan idman növləri üzrə bölmə məşğələləri də təşkil edilməlidir. Məsələn tennis, bədii gimnastika, üzgüçülük kimi növlərlə məşğul olmaq məktəbdənkənar bədən tərbiyəsi və idman işlərinin həyata keçirilməsinin bir hissəsidir. Məktəbdənkənar bədən tərbiyəsi və idman işləri ümumtəhsil məktəbinin təlim-tərbiyə işlərinə uyğun olmalı, onu davam etdirməli və dəyərləndirməlidir. Bədən tərbiyəsi müəllimi şagirdlərin məktəbdənkənar işlərinə diqqətlə yanaşmalı, onların aldığı bilik və bacarıqların sinif yoldaşlarına öyrədilməsinə nəzarət etməlidir.

Aydın müəllim qeyd etdi ki, tələbələrin bədən tərbiyəsi dərslərinə marağını artırmaq da çox vacibdir. “Mən hər zaman tələbələrimdən tələb edirəm ki, dərsə idman formasında gəlsinlər. Dərsin nə olduğunu hiss etsinlər. Düzünü deyim ki, bəzən bu tələbim onların narazılığına səbəb olur. Lakin vaxt keçdikcə tələbələr bu vərdişə yiyələnirlər. Hətta bəzən məndən narazı qalanlar sonradan mənə minnətdarlıq edirlər. Çalışıram ki, tələbələrimizin müxtəlif idman növlərinə marağı artsın. Bu, çox vacib amildir. Bakı Texniki Kollecində təhsil alan tələblərin fiziki sağlamlığının keşiyində dayanırıq ki, onlar gümrah, cəsarətli və çevik olsunlar. Burada təhsilini başa vurduqdan sonra hərbi xidmətə yollanan tələbələrin bir çoxu ordudan təxris olunarkən yanıma gəlir, onlardan tələbəlik dövründə tələb etdiyim bacarıqların ordu sıralarında kömək etdiyini deyirlər. Düşünürəm ki, hər bir müəllim əlindən gələni etməlidir ki, şagird və tələbələr orduya tam hazır vəziyyətdə yollansınlar. Bizim kollecdə bu iş yüksək səviyyədə həyata keçirilir. Bakı Texniki Kollecinin direktoru Fərrux Məmmədov tələbələrin savadlı, dünyagörüşlü, fiziki və mənəvi cəhətdən sağlam böyüməsi üçün bütün imkanlardan istifadə edir. Onlar üçün şərait yaradır. Buna görə də biz ayrı-ayrı yarışlarda uğurla çıxış edirik. Tələbələrin gün ərzində zehni və fiziki hərəkət normalarına düzgün əməl etməsi də olduqca mühüm əhəmiyyətə malikdir.

Bizim dərs proqramımız tələbələrin bu normaları yerinə yetirməsinə uyğunlaşdırılıb”, - təcrübəli müəllim vurğuladı.

## Təlimdə məsuliyyət daşıdığını anlayan hər bir şagirdin idrak fəallığı da yüksəlir

Qeyd etmək lazımdır ki, fiziki tərbiyə üzrə tədris materiallarının müvafiq qaydada tədrisi təlimin müsbət nəticələnməsinə öz təsirini göstərir. Müxtəlif növ yeriş, qaçış və gimnastika hərəkətlərinin musiqinin müşayiəti ilə yerinə yetirilməsi şagirdlərin fəallığını və həvəsini artırır. Bu cür hərəkətlər onların dərsə marağını da yüksəldir. Hərəkətlərin icraolunma tempi tədris materialının məzmunundan, onun icrasından (asan və ya mürəkkəb olmasından), nə məqsədlə yerinə yetirilməsindən də mühüm dərəcədə asılıdır. Hərəkətlər yüksək, orta və aşağı tempdə icra oluna bilər. Burada sinifin orta təlim tempi mütləq nəzərə alınmalıdır.

Mütəxəssislərin araşdırmaları zamanı gimnastika, atletika hərəkətləri, idman oyunları üzrə fəndlərin orta təlim tempinə uyğun həyata keçirilməsinin daha önəmli və təsirliliyi müşahidə olunmuşdur.

Tədris prosesinin səmərəliliyinə zəmin yaradan amillərdən biri də təlim zamanı sərbəstliyin təmin olunmasıdır. Yəni, şagirdlərin idrak fəallığı, təlimə şüurlu və düşüncəli yanaşması təmin edilməklə, onların müstəqilliyinə, sərbəst hərəkət etmələrinə də üstünlük verilməlidir. Bu, öyrətmə və öyrənmənin vahidliyinin gözlənilməsilə sıx əlaqədar olmaqla yanaşı, müəllimin və şagirdlərin fəaliyyətinin tənzimləməsini stimullaşdıran mexanizmlərdən hesab olunur.

Mütəxəssislər hesab edirlər ki, müxtəlif növ, rəngarəng fiziki hərəkətlər, mütəhərrik və əyləncəli oyunlar lazımi templərdə, tədris şəraiti nəzərə alınmaqla keçirilməlidir. Bu zaman həm öyrədən, həm də öyrənənlər məsuliyyət hiss etməlidirlər. Belə olmasa, həmin təlimin uğurlu nəticəsindən danışmaq olmaz. Təlimdə məsuliyyət daşıdığını anlayan hər bir şagirdin və tələbənin idrak fəallığı da da yüksəlir. Bu isə birbaşa təlimə şüurlu yanaşmanı, düşünərək təhlillər aparmanı, müəyyən qənaətə gəlməni təmin edir. Şərh olunanlar daha yaxşı qavranılır, yadda saxlamağa ciddi səy göstərilir. Təlimin şüurlu surətdə qavranılması uşaqların mənəvi və psixoloji hazırlığında mühüm rol oynayır. Yuxarıda sadalanan komponentlərdən kompleks istifadə olunması təlimdə nailiyyət qazanılmasında ən başlıca şərtlərdən sayılır.

## “Bunları nəzərə almadan təlim-məşqin keyfiyyətindən danışmağa dəyməz”

Təcrübə göstərir ki, fiziki tərbiyənin təlim prosesinin düzgün təşkili və keçirilməsində pedaqoji təcrübə əsas rol oynayır. Fiziki tərbiyənin tədrisi zamanı məktəbli gigiyenasına riayət edilməsi, təlim üçün mənəvi-psixoloji və estetik şəraitin yaradılması da əhəmiyyətli komponentlərdəndir. Təlim prosesi üçün maksimum dərəcədə məqsədəuyğun sanitariya-gigiyena şəraitinin yaradılması da nəzərə alınmalıdır. Şagirdlərin təlim-tərbiyə işində və sürətli inkişafının təmin edilməsində tədris prosesinin optimallaşdırılması prinsiplərinin də tətbiqinə ehtiyac duyulur. Tədris zamanı təlimlərin kompleks şəkildə, ardıcıllıqla yerinə yetirilməsi uşaqların hərtərəfli inkişafına, şəxsiyyət kimi formalaşdırılmasına və mənəvi aləminin zənginləşdirilməsinə müsbət təsir göstərir.

Aydın Kazımbəyov bu sahə üzrə ən xırda məqamların diqqətdə saxlanılmasının vacibliyini vurğuladı. O bildirdi ki, bədən tərbiyəsi məşğələlərinin səmərəliliyinin yüksədilməsində onun optimal şəkildə təşkili mühüm rol oynayır. Məşğələnin səmərəliliyini yüksəltmək, onu optimallaşdırmaq bir sıra pedaqoji-psixoloji amillərlə sıx surətdə əlaqədardır. Bunları nəzərə almadan təlim-məşqin keyfiyyətindən danışmağa dəyməz. Digər fənlərdə olduğu kimi, şagirdlərlə aparılan bədən tərbiyəsi məşğələlərində də optimallaşdırma təhsilin məzmununun elmli olması, müasir şəraitlə sıx əlaqələndirilməsi, sistematiklik və ardıcıllıqla həyata keçirilməsi ilə şərtlənir. Məşğələnin optimal təşkili, eyni zamanda bədən tərbiyəsi üzrə nəzəri və praktik materialların şagirdlər tərəfindən fəal, mütəşəkkil və yaradıcılıqla, şüurlu surətdə öyrənilməsi ilə səciyyələnir. Bu o deməkdir ki, hər hansı bir fiziki hərəkət öyrədilirsə, bu hərəkətin nə məqsədlə yerinə yetirilməsi, sosial-iqtisadi əhəmiyyəti şagirdlərə çatdırılmalıdır. Bədən tərbiyəsi məşğələlərinin optimallaşdırılmasının ümumi cəhətləri ilə yanaşı, həm də özünəməxsus xüsusiyyətləri vardır. Fiziki tərbiyə üzrə təlim-tərbiyə tapşırıqlarının verilməsinə kompleks yanaşmaq onun optimallaşdırılmasının əsas vasitələrindəndir. Bununla yanaşı, şagird və tələbələrlə keçirilən bədən tərbiyəsi məşğələlərinə kompleks yanaşma müəllimin daim diqqət mərkəzində olmalıdır.

## Zəhmət bəhrəsiz qalmır

Yola saldığımız 2017-ci il Bakı Texniki Kollecinin idmançı tələbələri üçün də yaddaqalan olub. Aydın müəllimin rəhbərliyi altında çıxış edən komandalar uğurlu nəticələrlə diqqət çəkiblər. Məlumat aldıq ki, il ərzində keçirilən bir sıra yarışlarda Kollecin komandası uğurla çıxış edib. Orta ixtisas Təhsil müəssisələri tələblərinin XIII Respublika spartakiadasında III kurs tələbəsi Murad Paşayev isə fərdi yarışlarda daha yüksək nəticə əldə edib. O, 100 metr məsafəyə (12,07 saniyə) hamıdan birinci çatıb. O, 4X100 esafetdə ikinci yerə layiq görülüb.

Bütün bu uğurlar kollecdə idman dərslərinə olan diqqətin sayəsində ərsəyə gəlib. Sərbəst güləş üzrə SSRİ idman ustası, respublikanın fəxri bədən tərbiyəsi və idman işçisi olan Aydın Kazımbəyov Nizami rayonunda idmanın təşkilinə görə diplom və sertifikatlarla mükafatlanıb. Bundan başqa, tanınmış mütəxəssis IV İsalm Həmrəyliyi Oyunlarının təbliği və təşkilində göstərdiyi xidmətlərə görə də diplomla mükafatlandırılıb. Buradan görünür ki, hər kəs öz işində məsuliyyətli olarsa, çəkilən zəhmət bəhrəsiz qalmır.




***Anar Əhmədov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

*Güləş*

# ÖTƏN İL GÜLƏŞÇİLƏRİMİZ 294 MEDAL QAZANIBLAR

*(əvvəli 1-ci səhifədə)*



## Böyüklər

2017-ci ilin əvvəlində dünya Kuboku yarışlarında ölkəmizi təmsil edən sərbəst və yunan-Roma güləşi üzrə yığma komandamız ənənəyə sadiq qalaraq ilk üçlükdə qərarlaşıb. İran İslam Respublikasında keçirilən yarışları yunan-Roma güləşçilərimiz ikinci, sərbəst güləşçilərimiz isə üçüncü yerdə başa vurublar.

Serbiyanın Novi-Sad şəhərində keçirilən Avropa çempionatında isə iki güləşçimiz Avropa çempionu tituluna layiq görülüblər. Daha iki idmançımız gümüş, üç güləşçimiz isə bürünc medal qazanıb. Beləliklə, Avropa çempionatını 7 (2 qızıl, 2 gümüş və 3 bürünc) medalla başa vuran pəhləvanlarımız (sərbəst və qadın güləşi) komanda hesabında 2-ci nəticə göstəriblər.

Ölkəmizin ev sahibliyi etdiyi IV İslam Həmrəyliyi Oyunlarında isə Azərbaycan güləş yığması 23 (12 qızıl, 6 gümüş və 5 bürünc) medala sahib olub.

Fransanın paytaxtı Parisdə keçirilən dünya çempionatını da güləşçilərimiz üçün uğurlu hesab etmək olar. Yığmalarımız çempionatı 1 qızıl və 2 bürünc medalla başa vursa da, sərbəst güləşçi Hacı Əliyevin üçüncü dəfə dünya çempionu adını qazanması ilə güləş tariximizdə yeni səhifə yazılıb.

Təmsilçilərimiz Litvanın Klaypeda şəhərində keçirilən hərbçilərin dünya çempionatını 11( 2 qızıl, 3 gümüş və 6 bürünc) medalla başa vurublar. Sərbəst güləşçilərimiz komanda hesabında dünya çempionatının bürünc mükafatını qazanıb.

## U-23

Güləş komandamız Macarıstanın Sombathey şəhərində keçirilən 23 yaşa qədər güləşçilərin (U-23) Avropa çempionatını da uğurla başa vurub. Bu yarışda 11 (5 qızıl, 1 gümüş və 5 bürünc) medala sahib olan yığmamız Avropa çempionatının üçüncüsü olub. Yunan-Roma güləşçiləri isə 3 qızıl medalla çempionatı birinci yerdə başa vurublar.

Ötən il tarixdə ilk dəfə Polşanın Bıdqoş şəhərində keçirilən 23 yaşa qədər güləşçilərin dünya çempionatında isə yığmamız 5 bürünc medal qazanıb.

## Gənclər

Pəhləvanlarımız Almaniyanın Dortmund şəhərində keçirilən Avropa çempionatını da uğurla başa vurublar. Ümumilikdə, 7 (3 qızıl, 3 gümüş və 1 bürünc) medala sahib olan komandanın sərbəst güləşçiləri yarışı 2-ci yerdə tamamlayıblar.

Güləş üzrə Azərbaycan yığması Finlandiyanın Tampere şəhərində keçirilən dünya çempionatında da 7 (1 qızıl, 1 gümüş və 5 bürünc) medala sahib çıxıb.

## Yeniyetmələr

2017-ci il yeniyetmə güləşçilərimiz üçün də yaddaqalan illərdəndir. Belə ki, pəhləvanlarımız Bosniya və Herseqovinanın paytaxtı Sarayevo şəhərində təşkil edilən Avropa çempionatında 10 (4 qızıl, 3 gümüş və 3 bürünc) medal qazanıblar. 2016-cı ildə olduğu kimi ötən il də sərbəst güləşçilərimiz komanda hesabında ikinci yeri tutublar.

Güləşçilərimiz Yunanıstanın paytaxtı Afinada keçirilən dünya çempionatını da 10 (3 qızıl, 5 gümüş və 2 bürünc) medalla başa vurublar. Sərbəst güləşçilərimiz komanda hesabında 3-cü nəticə göstəriblər.

Bundan başqa, yığma komandalarımız 2017-ci ildə iştirak etdikləri digər beynəlxalq turnirlərdən vətənə 195 (61 qızıl, 40 gümüş və 94 bürünc) medalla qayıdıblar.

Beləliklə, güləşçilərimiz 2017-ci il ərzində ümumilikdə, 294 (94 qızıl, 69 gümüş, 131 bürünc) medala sahib çıxıblar. Qazanılan medalların 136-sı yeniyetmə, 51-i isə gənc güləşçilərin payına düşür. U-23 Avropa və dünya çempionatlarında 16, böyüklərin yarışlarında isə il ərzində 91 medal əldə olunub. İl ərzində əldə etdiyimiz medalların 156-ı sərbəst, 102-i yunan-Roma, 36-ı isə qadın güləşçilərin payına düşür.

*Voleybol*

# Komandamız C qrupunda mübarizə aparacaq

Bu il sentyabrın 30-dan oktyabrın 21-dək Yaponiyanın 6 şəhərində qadınlar arasında voleybol üzrə XVIII dünya çempionatı keçiriləcək.

24 milli yığma komandanın iştirakı ilə keçiriləcək turnirə Yaponiya 5-ci dəfə ev sahibliyi edəcək. Qeyd edək ki, Yaponiya son 12 ildə 3-cü dəfə bu yarışı qəbul edəcək. İlkin seçmə turnirdə iştirak etmək üçün 137 yığma komanda sifariş verib. Bu komandalar dünya birinciliyinin final turnirinə 22 vəsiqə uğrunda mübarizə aparıblar. Seçim 5 qitə konfederasiyası çərçivəsində həyata keçirilib.

Final turnirinin püşkatma mərasimi 2017-ci il dekabrın 7-də Tokioda keçirilib. Yaponiyanın 6 şəhərində keçiriləcək yarışların əsas mükafatı uğrunda dünyanın 24 ən yaxşı komandası mübarizə aparacaq. Azərbaycan komandası C qrupunda yer alıb. Bu qrupda onun rəqibləri Trinidad və Tobaqo, Tailand, Rusiya, Cənubi Koreya və ABŞ yığmaları olacaq. Növbəti dövrəyə çıxmaq üçün ən azı dördlüyə düşmək zəruridir.

Yaponiya təşkilatçı ölkənin komandası kimi, ABŞ isə əvvəlki çempionatın qalibi kimi dünya çempionatına vəsiqə əldə edib. Azərbaycan, Bolqarıstan, Almaniya, İtaliya, Hollandiya, Rusiya, Serbiya və Türkiyə yığmaları Avropa üzrə ixtisas yarışlarının yekunlarına görə, Qazaxıstan, Çin, Tailand və Cənubi Koreya yığmaları Asiya üzrə ixtisas yarışlarının yekunlarına görə, Dominikan Respublikası, Kanada, Kuba, Meksika, Puerto-Riko, Trinidad və Tobaqo yığmaları Şimali Amerika üzrə ixtisas yarışlarının yekunlarına görə, Argentina və Braziliya - Cənubi Amerika üzrə ixtisas yarışlarının yekunlarına görə, Kamerun və Keniya yığmaları Afrika üzrə ixtisas yarışlarının yekunlarına görə çempionatda iştirak edəcəklər.

# "Neftçi idman klubu" İB

## Kikboksinq

Ukraynanın Kiyev şəhərində kikboksinq üzrə "Wizard Open-2017" beynəlxalq turniri keçirilib. Yarışda 300-dən artıq idmançı qüvvəsini sınayıb.

Azərbaycanı təmsil edən yığmamızın heyətində "Neftçi İdman Klubu" iki idmançı ilə təmsil olunub. Təmsilçilərimizin hər ikisi mükafatalayiq yer tutub. Belə ki, Sehran Baxşıyev (71 kq) lou-kik versiyasında turnirin qalibi adını qazanıb. İsgəndər Hacıyev (67 kq) isə full-kontakt yarışlarının gümüş medalına sahib olub.







Klubumuzun kikboksinq üzrə məşqçisi Elnur Alıyev isə turnirdə ədalət təmsilçisi qismində çıxış edib.

## Cüdo

Bakı İdman Sarayında kişilər, qadınlar və usta cüdoçular arasında təşkil olunan ölkə çempionatı başa çatıb. Yarışın sonuncu günündə kişilər arasında iki çəki dərəcəsində, eləcə də, usta cüdoçuların bütün yaş qrupları və çəki dərəcələrində qaliblər bəlli olub.

"Neftçi İdman Klubu"nun cüdoçularından 100 kq-dan yuxarı çəki dərəcəsində mübarizə aparan Şahin Qəhrəmanov bütün görüşləri qalib başa vuraraq çempionatın qalibi olub. Onunla eyni çəkidə çıxış edən Musa Çəkərəliyev isə üçüncü yeri tutub.

Xatırladaq ki, yarışın əvvəlki günlərində idmançılarımız daha 18 medal qazanıblar. Neftçi İdman Klubu"nun cüdoçuları ümumi komanda hesabında birinci yerə layiq görülüblər.

Klubumuzu təmsil edən usta cüdoçular arasında M1-M2 yaş qrupunda Vüqar Babayev (66 kq) və Rafael Şahverdiyev (+100 kq) respublika çempionu olublar. İbrahim Quliyevlə Rəşad Fərziyev (hər ikisi 90 kq) isə bürünc medala yiyələniblər. M3-M4 yaş qrupunda Rüfət İsmayılov (81 kq) liderliyə yüksəlib. Mehman Məmmədov (100 kq) isə 3-cü pillədə qərarlaşıb. Maqsud Matanov (73 kq) və Elçin İsmayılov (81 kq) isə M5-M6 yaş qrupunda qızıl medala layiq görülüblər.

## Futbol

"Neftçi İdman Klubu"nun on iki yaşadək futbolçulardan ibarət komandası dekabrın 18-dən 26-dək Türkiyənin Trabzon şəhərində təlim-məşq toplanışı keçirib.

Komandamız bu müddət ərzində paralel olaraq dörd yoldaşlıq görüşündə qüvvəsini sınayıb. Böyük əzmkarlıq nümayiş etdirən futbolçularımız bütün qarşılaşmaları qələbə ilə başa vurublar. Təmsilçimiz "Trabzonspor", "Ortahisar", "Yolspor" və "Soyuqsuspor" komandalarını müvafiq olaraq 4:1, 5:3, 6:0 və 11:3 hesabı ilə məğlub edib.

***"Neftçi İdman Klubu" İctimai Birliyinin mətbuat xidməti***

*Boks*

## Beynəlxalq turnirdə uğurlu nəticə

Rusiyanın Saratov şəhərində gənclər və yeniyetmələr arasında boks üzrə "B" kateqoriyalı beynəlxalq turnir təşkil olunub.



13-cü dəfə keçirilən turnirdə Azərbaycan DİN İdman Cəmiyyətinin 7 idmançısı təmsil edib. Cəmiyyətin yetirmələrindən Zaur İmaməliyev (38,5 kq) və Məhəmməd Bağırov (81 kq) bütün rəqiblərini üstələyərək qalib adını qazanıblar. Xalid Məmmədov (50 kq) və Turab Səngərli (69 kq) turnirin gümüş medalı ilə kifayətlənməli olublar. Daha üç idmançımız - Şahin Məmmədov (50 kq), Elşən Quliyev və Elmar Əhmədov isə (hər ikisi 52 kq) bürünc medallara layiq görülüblər.

Komanda yarışa İdman Cəmiyyətinin müəllimi, Əməkdar məşqçi Yadigar Məmmədovun rəhbərliyi altında hazırlaşıb.

*İdman nəşrləri*

# *Şuşada voleybolu yenə də sevəcəklər*

Azərbaycan xalqının tarixi qədim olduğu kimi bədən tərbiyəsi və idmanın inkişafı da uzaq keçmişdən başlanır. İnsanlar qədimdə güləş, qaçış, ağırlıqqaldırma, üzgüçülük, avarçəkmə, oxatma, qılıncoynatma, nizə tullama kimi idman növləri ilə məşğul olurdular. Azərbaycanın dilbər guşəsi olan Qarabağda da idmanı çox sevirdilər. Dünyaya Xan Şuşinski, Rəşid Behbudov, Firudun bəy Köçərli, Bülbül, Səmədbəy bəy Mehmandarov, Əfrasiyab Bədəlbəyli kimi və bir çox məşhur şəxsiyyətlər bəxş etmiş Qarabağımızda elm, incəsənət də daxil olmaqla, idmana maraq böyük idi. Belə bir faktı demək kifayətdir ki, XIX əsrdə Fransa yazıçısı Aleksandr Düma Azərbaycanda olarkən Qarabağ xanının qızı, məşhur Azərbaycan şairəsi Xurşudbanu Natəvanla şahmat oynamış və şairənin gözəl oyununa heyran qalmışdır.




Komanda idman növlərindən olan voleybolun yaranma tarixi o qədər qədim deyil. Maraqlıdır ki, futbolla müqayisədə Azərbaycan voleybolunun uğurları böyükdür və bu ənənənin qorunması bu gün də davam etdirilir.

Əbülqasım Novruzovun yenicə çapdan çıxan "Şuşada voleybolu sevirdilər..." kitabı da məhz Azərbaycanda idmanın tarixi, eləcə də, Qarabağda voleybolun populyarlığından bəhs edir. Müəllif bu qədim diyarda komanda idman növünün yaranması və inkişafı tarixindən, şuşalı volebolçuların həyatından ətraflı söhbət açır. Əslən şuşalı olan Əbülqasım Novruzov Şuşa Rayon Uşaq-Gənclər İdman Məktəbinin direktoru və həm də məktəbin futbol üzrə məşqçi müəllimidir. Müəllifin bu günə qədər 4 kitabı işıq üzü görüb. Bunlar "Şuşanın idman tarixi və idmançıları" (2009), "Şuşa futbolu" (2013), "Şuşalı Qaçay pəhləvan" (2015) və nəhayət, "Şuşada voleybolu sevirdilər..." (2017) nəşrləridir. Qeyd edək ki, Əbülqasım Novruzov idman haqqında yazan yeganə şuşalı müəllifdir. Kitab 493 səhifədən ibarətdir və nəşrə rəyi voleybol üzrə Bakının "Dinamo" komandasının üzvü Nadir Məmmədov verib. Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov tərəfindən verilmiş təklif və tövsiyələr əsasında nəşr olunmuş "Şuşada voleybolu çox sevirdilər..." adlı kitabda həyatını idmana, voleybola həsr etmiş şuşalı idmançılardan bəhs edilir. Kitabın əvvəlində Azərbaycanın qədim və dilbər diyarı olan Qarabağın, Şuşanın tarixindən, mədəniyyətindən, iqtisadiyyatından söhbət açılır. Sonra komanda idman növü olan voleybolun yaranması və Azərbaycanda, eləcə də, Şuşada inkişafından ətraflı danışılır.

Əbülqasım Novruzovun "Şuşada voleybolu sevirdilər..." kitabı ilin yekunlarına görə Azərbaycan İdman Jurnalistləri Assosasiyasının (AİJA) "İlin idman nəşri" nominasiyasında qalib olub. Müəllifin "Şuşalı Qaçay pəhləvan" adlı kitabı da AİJA tərəfindən mükafata layiq görülüb. Əbülqasım Novruzov 5-ci kitabını doğma yurdu Şuşada yazacağını deyir.

# *İdmansevərlərin stolüstü kitabı*

Ölkəmizdə idman terminləri ilə bağlı nəşrlərin sayı o qədər çox deyil və demək olar ki, məhduddur. Əksəriyyətimiz iş prosesində idman terminləri ilə bağlı müəyyən problemlərlə rastlaşır və çox vaxt bu terminləri rus dilindən tərcümə etməyə məcbur oluruq. Məhz bu səbəbdən idman terminləri haqqında kitabların işıq üzü görməsi çox vacibdir. Belə ki, Süleyman Hüseynov və Səməndər Allahverdiyevin birlikdə nəşr etdirdikləri "İdman terminlərinin izahlı lüğəti" adlı kitabı buna gözəl sübutdur. "Elm və təhsil" mərkəzi tərəfindən nəşr edilən sorğu lüğətində müasir dövrdə ölkəmizdə və dünyada geniş yayılmış çox işlənən terminlər əlifba sırası ilə verilib. Lüğətin məqsədi əsas idman terminlərinin izahını dilimizdə yığcam və sistemli halda qaydaya salmaqdır. Nəfis tərtibatda hazırlanmış kitab idman sahəsində çalışan mütəxəssislər, məşqçilər, hakimlər, müxtəlif idman növləri üzrə federasiya əməkdaşları, idman ixtisası üzrə ali təhsil ocaqlarının tələbə və müəllim kollektivi, idman jurnalistləri, eləcə də, idmansevərlər üçün nəzərdə tutulub.




Kitabda ön sözdən sonra lüğətdən necə istifadə olunması, abreviaturanın siyahısı, şərti yazılı işarələr sistemi, əlifba sırası və lüğətdə yer alan idman terminlərinin siyahısı verilib. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının professoru Məmməd Nəsrullayev və Azərbaycan Pedaqoji Universitetinin müəllimi, dosent, Əməkdar məşqçi, Əməkdar bədən tərbiyəsi və idman xadimi Gülbala Quliyevin rəy verdiyi bu kitab idman sahəsində çalışan insanların stolüstü kitabına çevrilib.

***Səadət Hakıyeva***

## Sönməyən ulduzlar

# Ecazkar, özünə sığışmayan, möhtəşəm, bir az da şıltaq Ronaldinyo...



Mobil İSMAYILOV

*Növbəti dəfə bloknotlarımı vərəqləyib qeydləri, yazıları nəzərdən keçirirdim. Nədənsə, Ronaldinyo ilə bağlı olan qeydlərim diqqətimi cəlb etdi. Fikirlər məni çox da uzaq olmayan illərə çəkib apardı. Qərara gəldim ki, həmin qeydlərin üzərində bir qədər də işləyib oxucuların ixtiyarına verim.*

*Ronaldinyonu əla tanıdığınıza əminəm. Ona görə də statistik rəqəmlərin üzərində dayanmaq istəmirəm. Avtobioqrafiyasına da toxunmayacağam. Hamısı internetdə var. Ətraflı maraqlanmaq istəyənlər internetə baş vura bilərlər. Amma yenə də bəzi xatırlatmalara ehtiyac duyuram. Güman edirəm ki, bu kiçik xatırlatmalar və mülahizələrim oxucular üçün maraqlı olacaq...*

### O, Kataloniya klubuna yeni nəfəs gətirdi...

Futbolsevərlərə yaxşı bəllidir ki, tanınmış hər hansı bir futbolçu "Barselona" klubuna böyük bir enerji ilə gəlir. Bu komandada oynamaq, daim əsas heyətə düşmək, futbolsevərlərin rəğbətini qazanmaq şərəfli və çox uğurlu nailiyyət hesab olunur. Bu klubda qalıb möhkəmlənmək, uğurlar, titullar əldə etmək isə oyunçunun peşəkarlığından asılı olmayaraq, heç də hər futbolçuya nəsib olmur. Ronaldinyo da PSJ-dən böyük həvəslə, ümidlərlə "Barselona"ya transfer olunanda gələcəklə bağlı hələ hər şey irəlidə idi. Ronaldinyonun futbol karyerasının pik dövrü elə "Barselona"ya təsadüf etdi. O vaxtlar Kataloniya klubu "qızıl heyət"ə malik idi. Ronaldinyo bu komandanın oyununu daha da gözəlləşdirdi. Onun sayəsində "Barselona"nın oyunu, necə deyərlər, lap dada gəldi. O, Kataloniya klubuna yeni nəfəs gətirdi... Braziliyalı futbolçu gənc yaşlarından şöhrətlənməyə başlamışdı. Tamaşaçılar onun heyrətamiz hərəkətləri qarşısında təəccüb içində qalırdılar. O, doğma klubunda məşqlərdən yorulmur, hər vasitə ilə fiziki hazırlığını artırmaqdan usanmırdı. Onun məşqlərinə baxanlar da heyrətlərini gizlədə bilmirdilər. Hələ Braziliyada oynadığı illərdə heç kəsdə olmayan cəldliyi var idi. Bu cəld, səlis hərəkətləri, xüsusən topun qəbulu, saxlamadan dəqiq ötürməsi, ölçüyəgəlməz sürətli keçidləri artıq onun qeyri-adi istedadından xəbər verirdi. Ronaldinyo texniki fəndləri o qədər mükəmməl mənimsəmişdi ki, tamaşaçıya sadəcə heyrətlənmək qalırdı. O, qısa müddətdə inanılmaz dərəcədə məşhurlaşdı. Təbii ki, belə futbolçu Braziliyada qala bilməzdi və qalmadı da... Ronaldinyo həm Braziliyadan gedəndə, həm də PSJ-dən ayrılanda bu proseslər elə də asan olmayıb. O, bir sıra çətinliklərlə qarşılaşıb. Çünki hər dəfə onu buraxmaq istəməyiblər...

### Dahi futbolçuların fiziki durumunda heç vaxt problemləri olmur

Şansın gətirməyi, ən azı, lazımi zamanda lazımi yerdə olmaqdır. Həqiqətən də bu çox vacibdir. Əslində elə şans buradan başlanır. Bu baxımdan Ronaldinyonun "Barselona" seçimi bütövlükdə artıq formalaşmış peşəkar futbolçu kimi ona tam uyğun idi. Futbolçunun karyerası üçün onun peşəkarlıq dərəcəsi ölçüdür. Ulduz futbolçunun təyinatı da özünü təsdiqindən başlamalıdır. Buna görə də "Barselona"ya keçən braziliyalı futbolçu əslində özünü düzgün dəyərləndirdi.

Ronaldinyo "çiçəklənən" dövrünü "Barselona"da keçirib. Ayağı meydana dəyən kimi elə bil ona ilham və enerji gəlirdi. Bu odlu-alovlu futbolçunun üzündə həmişə inamlı bir ifadə olurdu. Dərhal da tamaşaçıların daxilinə müsbət cərəyanlar dolurdu. Buna görə tamaşaçıların gözündə "şirin" futbolçuya çevrilmişdi. Onun özünə xas, təkrarolunmaz oyun tərzi olub. Meydanda yüksək dərəcədə həvəsli görünürdü. O, daim təhlükəli vəziyyətlər yaradırdı. Rəqib komandanın oyunçularını oyun ərzində təzyiq altında saxlamağı böyük ustalıqla bacarırdı. Elə bu amillər onun qeyri-adi potensialından xəbər verirdi. Həddindən artıq cəld hərəkətləri ilə fərqlənən braziliyalı futbolçu müdafiəçilərin öhdəsindən asanlıqla gəlirdi. Fırtınalı dövrünü keçirən Ronaldinyo demək olar ki, qarşısı alınmaz idi. Onu saxlamaq mümkün olmurdu. Gözlənilməz, qeyri-adi keçidləri var idi onun. Bu keyfiyyətləri ilə o, rəqib komandanın oyunçuları üçün açıq-aşkar qorxu mənbəyinə çevrilmişdi. Fiziki cəhətdən çox güclü, hərəkətli idi. Hərçənd ki, dahi futbolçuların fiziki durumunda heç vaxt problemləri olmur.

### "Sirrin" mənzərəsi sadəcə həmişə onun sifətinə hopmuş təbəssümdə idi

Ronaldinyonun texnikası hüdudsuz idi. Ona görə də tamaşaçılar heyrətə gəlirdilər. Hər bir oyunda onun qol vurmaq istəyi çox yüksək idi. Elə oyunlar da olurdu ki, Ronaldinyo qol vurmaq üçün sanki alışıb-yanırdı. Onun matçboyu tamaşaçılara bəxş etdiyi bəzi epizodlar sözün əsil mənasında inanılmaz təsir bağışlayırdı. Belə epizodlar tamaşaçıları riqqətə gətirirdi. Bəli, öz yolu olan Ronaldinyonun oyunu ürəkləri fəth edirdi. Qeyri-adi fərdilik, özünəməxsusluq coşdururdu tamaşaçıları.

Oxucu haqlı olaraq düşünə bilər ki, sadalanan bu keyfiyyətlər bəzi məşhur ulduz futbolçular üçün də xarakterikdir. Amma yazının davamı olaraq şərh edəcəyim fikirlərə əsasən mən bu gün də onu məhz bu yönümdən bənzərsiz, təkrarsız hesab edirəm. Gəlin, bir anlığa bu dahi futbolçunu, o dövrün Ronaldinyosunu, onun oyunlarını bir daha göz önünə gətirək. Bütün oyun ərzində onun yanar, oynaq gözlərinə baxmaq çox maraqlı görünürdü. Onun gözlərinə, baxışlarına baxan tamaşaçı sanki onun qəlbini, duyğularını oxuyurdu.



Ronaldinyonun siması, saç quruluşu diqqəti cəlb etməklə əslində onun oyun üslubunu tamamlayırdı. Onun sifətində, fizionomiyasında nələr yox idi?! Adama elə gəlirdi ki, orijinal bir futbolçu olan Ronaldinyo daim gülür. Bu qədər gülərüzlü ikinci bir futbolçu olmayıb. Əslinə qalsa o, heç də daim gülmürdü. "Sirrin" mənzərəsi sadəcə həmişə onun sifətinə hopmuş təbəssümdə idi. Bu təbəssüm onu şirinləşdirərək daha da doğmalaşdırırdı, sevdirirdi. Məhz bu təbəssümün sayəsində onun həmişə hamı ilə ünsiyyəti yaxşı olurdu. Xarici görkəminə, baxışlarına, daimi təbəssümünə görə ona qeyri-adi rəğbət bəsləyirdilər. Baxışı, gülüşü də qəlbini göstərə biləcək qədər mənalı və ifadəli idi. Üzündən təbəssüm əskik olmayan Ronaldinyo çox şux bir oyunçu idi. Şuxluq da sanki bu futbolçunun boynuna biçilmişdi. Bir sözlə, xarici görünüşü ilə mükəmməl oyunu bu futbolçunu tamamlayırdı.

### Meydanda futbol oynayan rəqqas

Ronaldinyo qol vuranda gözlərinin parıltısı bir az da artırdı. Parlayan gözlər sifət cizgilərinə qarışaraq tamaşaçıları coşub-daşdırırdı. Tamaşaçı bütün daxili aləmi sifətinə əks olunan Ronaldinyonun oyunboyu sanki elə daxili dünyasına da səyahət edirdi. Çünki hər şey onun içindən gəlirdi. Futbolun incəliklərini iliyinə qədər hiss edirdi Ronaldinyo. "Barselona"da oynadığı illərdə braziliyalı futbolçuda mən hələ indiyədək heç bir oyunçuda görmədiyim nadir bir keyfiyyəti də müşahidə edirdim. Bu futbolçunun oyununda, hərəkətlərində qeyri-adi oynaqlıq, ritmlik dərhal nəzərə çarpırdı. O, ritm, hərəkət rəngarəngliyi, topla davranış sehirbazı idi. Ona meydanda futbol oynayan rəqqas da demək olardı. Hərdən elə olurdu ki, qaçanda, top qovanda da rəqs edirdi sanki... Ronaldinyo meydanda o dövrdə heç bir futbolçuda müşahidə olunmayan şou göstərirdi (Ronaldinyodan sonra bu keyfiyyətlər Neymarda müşahidə edilib). Bu cür ritmli, başdan ayağa oynaqlıq duyulan oyunu ilə Ronaldinyo tamaşaçılara sevincdolu həyəcan gətirir, ağlasığmaz duyğular bəxş edirdi. Bütün bunlar onun xüsusi oyun üslubunu daha da zənginləşdirir, mənalandırırdı.

Ümumiyyətlə, Ronaldinyonun sanki bir təbii cəlbediciliyi vardı. Tamaşaçılar qaynayıb-daşan bu dahi futbolçunun ecazkar, şirin, sehrli oyunundan məftun qalırdılar. Hər şeyə qadir olan Ronaldinyonu onlar hədsiz dərəcədə bəyənirdilər. Efirdə görünən kimi dərhal tamaşaçıda xüsusi bir ovqat yaranırdı. Ovqat və ritm yaratmaqda virtuoz bir istedad sahibi olan Ronaldinyo bəzən tamaşaçıların varlığına elə hakim kəsilirdi ki, həmin anlarda onlar gerçək həyatda olduqlarını sanki unudurdular. Tamaşaçıların onunla bağlı o qədər kövrək xatirələri vardır ki... Burada maraqlı bir haşiyə çıxmaq istəyirəm. Futbol həvəskarları Maradonanın İngiltərə ilə oyunda meydanın mərkəzindən topu ələ keçirib sürətlə irəliləyərək vurduğu ikinci qolu həmişə xatırlayırlar. Bu tarixi qol heç vaxt yaddan çıxmayacaqdır. İndi vurulan belə qollara "Maradonasayağı" qollar deyirlər. Ronaldinyonun Madriddə "El-Klasiko"da vurduğu möhtəşəm qol da eyni ilə Maradonanın vurduğu qolun təkrarı oldu. Sanki tarix təkrarlandı. Belə ki, Ronaldinyo da təxminən meydanın mərkəzində topa yiyələnərək sürətlə rəqib komandanın bir neçə oyunçusunu keçməklə müəyyən məsafə qət edib heyrətamiz qol vurdu. Sürəti elə Maradonanın sürətindən fərqlənmədi. Hətta keçid də bütün incəlikləri ilə elə eyni oldu. Qapıçı Kasilyas nə baş verdiyini anlamayaraq yerində donub qaldı. Yalnız bir neçə saniyədən sonra şokdan ayılan qapıçı başını sağa-sola tərpədərək heyrətini gizlətmədi. Ən maraqlısı isə bu idi ki, Madrid azarkeşlərinin böyük əksəriyyəti ayaqüstə Ronaldinyonu alqışladılar.

### O, vacib anlarda imkansız, mümkünsüz görünən hər şeyi gerçəkləşdirib

Ronaldinyonun bir fərqli xüsusiyyəti də bu olub ki, əlinə düşən qol fürsətlərindən həmişə yararlana bilib. Fürsət də tez-tez ələ düşmür axı. İndi də bəzi futbol ulduzları var ki, əllərinə düşən fürsətlərin heç də hamısından, yaxud elə çoxundan yararlana bilmirlər. Məsələn, Luis Suares, Qonsalo Hiquain, Kərim Benzema, Tomas Müller və başqaları...



Ronaldinyo mühüm oyunlarda, vacib anlarda imkansız, mümkünsüz görünən hər şeyi gerçəkləşdirib. O, mümkün olmayanları reallığın hüdudlarına kimi gətirib çıxara bilib. Nəyi varsa, ortaya qoymağı bacarıb. Peşəkarlıq baxımından fantastik görünüb. Ürəklərdə taxt quran nadir futbolçulardan olub. Vurduğu gözəl qollarla şedevr yaradıb həmişə.

İstedadlı, peşəkar olduqdan sonra oynamağa nə var ki?! Üstünə intensiv məşq, inadkarlıq, məsuliyyət də gələndə oyunçu tanınmış futbol ulduzuna çevrilir. Amma bir də var dahi futbolçu. Burada artıq qeyri-adi talantdan söhbət gedə bilər. Bu baxımdan da Ronaldinyo ecazkar olub. Onun oyunlarına sadəcə baxmaq hələ az idi. Gərək duyaydın onu... Hamı baxa bilər. Amma duymaq... Bu, incə məsələdir. Öz dövründə hamıdan üstün görünürdü Ronaldinyo...

O illərdə "Barselona"nın oyunlarına həyəcansız baxmaq mümkün deyildi. Ronaldinyo da Kataloniya klubuna yeni ab-hava gətirdi. Möhtəşəmlik, qeyri-adilik, mükəmməllik ab-havası... Bəli, Ronaldinyo "Barselona"da tarix yazdı. O, bu komanda ilə bütün titulları qazandı.

### Barların daimi "sakininə" sərt mesaj

Zaman sürətdir, axıb gedir. Nağıllarda deyildiyi kimi, aylar, illər ötür... Futbol ulduzlarının çoxu gecə həyatına aludə olur. Bu da təbiidir və əksər hallarda qaçılmazdır. Çılğın Ronaldinyo da əyləncələrə meyilli idi. Artıq bir az da şıltaqlıqları nəzərə çarpırdı. Nə qədər cəhd etsə də, "gecə həyatından" əl çəkə bilmirdi. "Cəlbedici" həyat tərzi isə tədricən idman formasına təsir edir. Gecə klublarına vərdiş edən ulduz futbolçuların da məşqlərində, oyunlarında "axsamaların" başlaması labüddür. Bir tərəfdən də Ronaldinyoda tez-tez ciddi zədələnmələr baş qaldırmışdı. Digər tərəfdən isə artıq "Barselona"da Messi parlamağa başlamışdı...

Bir müddət keçdi. O, arxa planda durmaqla barışa bilməzdi, yenidən diqqəti üzərinə çəkmək istəyirdi. Buna görə də "Milan"a transfer olundu. Bu komanda ilə yalnız İtaliya çempionu adını qazandı. Burada da azarkeşlərin ona böyük rəğbəti var idi. Lakin tezliklə Ronaldinyo barların və gecə klublarının daimi "sakininə" çevrildi. Dahi futbolçunun bu meyillərindən narazı qalan klub rəhbərliyi və baş məşqçi bununla bağlı ona sərt mesajlarını bildirməyə başladılar. Hadisələrin sonrakı axarı bu mesajların kifayət qədər ciddi olduğunu göstərdi. Ronaldinyo Braziliyaya qayıtdı. Hərçənd ki, onun oyunu ötüb keçən bu müddət ərzində öz təravətini itirməmişdi.

### "Ronaldinyo futbolçularla tamaşaçılar arasında harmoniya yaradır"

Klublardakı böyük uğurları ilə yanaşı, Ronaldinyo Braziliya yığması ilə bir dəfə - 2002-ci ildə dünya çempionu olub. Heç yadımdan çıxmaz. Cənubi Koreyada oyunqabağı parklarda, küçələrdə dəstə halında gəzən braziliyalı turistlər şərhçiyə müsahibələr verərkən deyirdilər ki, Ronaldinyo bizi inandırıb ki, çempion olacaqlar. Biz xoşbəxt azarkeşlərik. Ona görə ki, bizim Ronaldomuz, Ronaldinyomuz var. Əminik ki, belə də olacaq. Axı, tayı-bərabəri yoxdur onların. Bənzərsizdir onlar... Şərhçinin əlavəsi daha maraqlı idi: "Ronaldinyo meydanda da, meydandan kənarda da futbolçularla tamaşaçılar arasında harmoniya yaradır. O, hər yerdə komanda yoldaşlarına, tamaşaçılara hərarət paylayan futbolçudur" (Bu fikirlər Ronaldinyo haqqında olan filmlərin birində də öz əksini tapıb).

Başqalarından seçilən, oyun tərzi fərqli biçimdə olan, orijinal üslublu, futbola yeni nəfəs gətirən fitri istedadlı oyunçular həmişə tarixdə qalır. Zaman daim su kimi axır, dəyişir, illər bir-birini əvəz edir. Ancaq onlar əvəzolunmaz ulduzlar kimi qəlblərdə yaşayırlar. Bütün dünya azarkeşlərinin sevdiyi futbolçular olub və olacaq. Ronaldinyo da belələrindəndir... Ronaldinyo çoxdan köçüb yaddaşlara. İndi də onun oyunlarına baxanda, bax, bu yaddaşlar, duyğular təzələnir. Hərdən onun filmlərini seyr edib sadəcə köks ötürürəm. Sanki daha yetişmir ona bənzər futbolçular. Güclü oyunçular peyda olur. Amma beləsi yox. Hələlik yoxdur... Bəlkə nə vaxtsa, yetişəcək, meydana çıxacaq...

Maradona, Ronaldinyo, Messi futboldan aldığımız həzzin, zövqün, sirli aləmin reseptini yazan futbolçulardır. Belə resepti yazmaq hər ulduz futbolçuya nəsib olmur. Sirli məsələlərin olması hamıya bəllidir. Bu sirləri izah etmək də çətin olur. Möcüzəli məsələlər isə izah olunmur...

Buyaxınlarda Pep Qvardiolaya sual verdilər ki, çempionatda qələbə marafonunu davam etdirməyinizin sirri nədir? Buna necə nail olursunuz? Qvardiolanın cavabı isə elə toxunduğum sirli, möcüzəli məsələlərə uyğun oldu: "Futbolda anlaşılmaz hallar çox olur. Əslində mən özüm də hərdən oyunumuzu tam dərk edə bilmirəm. Heç özüm də anlaya bilmirəm ki, necə olur ki, yaxşı oynayırıq və ardıcıl qollar vurub qalib gəlirik. Belə baxanda keçən mövsümlə müqayisədə elə də çox iş görməmişik".

Deməli, elə doğrudan da Ronaldinyonun dünya futbolunda əbədi yaşamaq hüququ qazanmasında sirli, möcüzəli, izah olunmaz məsələlər də var. Bəlkə elə buna görə də o, sadəcə möhtəşəm, ecazkar olub?! Özünə sığışmayan, bir az da şıltaq Ronaldinyo...

# FUTBOL

## Sarı it ili: futbola sadiq "seçilmişlər"




TOPAZ PREMYER LİQASI

Artıq ilk həftəsini geridə qoyduğumuz 2018-ci ildən yeni uğurlar gözləyirik. Məlumdur ki, bu il sarı it ilidir. Çin təqviminə görə, it ilində dünyaya gələn insanlar təbiətcə sakit və mehriban olurlar. Bu il də onların xarakterinə uyğun keçəcək. Astroloqlar iddia edir ki, İt ili bütün bürclərə uğur və müvəffəqiyyət vəd edir. Onların sözlərinə görə, 2018-ci il həm karyera yüksəlişi, həm nailiyyətlər, həm də şəxsi həyatda müsbət hadisələrlə yadda qalacaq. Ümumlikdə, 2018-ci il hər kəsi öz nikbinliyi və müsbət əhval-ruhiyyəsi ilə sevindirəcək.

Bəs görəsən, Topaz Premyer Liqasında çıxış edən futbolçulardan "İt ili"nin nümayəndələri kimlərdir? "Olimpiya dünyası" qəzeti bununla bağlı araşdırma aparıb. Məlum olub ki, çempionatımızda məhz bu heyvanın təcəssüm etdiyi illərdə doğulan futbolçular kifayət qədərdir. Söhbət bu ildə 24 və 36 yaşını qeyd edəcək futbolçulardan gedir. Aydın məsələdir ki, 12, həmçinin 48 və daha yuxarı yaşda olanların bu siyahıda olması inandırıcı deyil. Bir sözlə, 1982-ci və 1994-cü il təvəllüdlülər bu göstəriciyə uyğun gəlir.

1982-ci ildə doğulan yalnız iki futbolçu Premyer Liqada mübarizə aparır. Bunlar "Qarabağ"ın aparıcı simaları Rəşad Sadıqov və Ansi Aqollidir. Hər iki futbolçunun bu il 36 yaşı tamam olacaq. Yeri gəlmişkən, Rəşad və Ansi cari mövsümün iştirakçıları arasında ən yaşlı saha oyunçularıdır. Onlardan böyük yalnız "Sumqayıt"ın 38 yaşlı qapıçısı Fərhad Vəliyevdir.

İndi "sarı it ili"nin 1994-cü il təvəllüdlü nümayəndələrinə keçək. Premyer Liqada çıxış edən belə futbolçuların sayı 21-ə bərabərdir. "Qarabağ"dan qapıçı Şahruddin Məhəmmədəliyev, habelə Elşən Abdullayevin bu il 24 yaşı tamam olur. Düzdür, Elşən qış fasiləsində "Zirə"yə icarəyə verilib.

"Zirə"də isə yarımmüdafiəçi Vüqar Mustafayevlə qanalı hücumçusu, bombardiri Riçard Qadze 1994-cü ildə anadan olub. Yeri gəlmişkən, Vüqar da vaxtilə "Qarabağ"ın futbolçusu olub, sonradan indiki klubuna icarəyə verilib.

"Qəbələ"də yalnız bir futbolçu "sarı it ili"ndəndir. Bu, fransalı hücumçu Famussa Konedir.

"Sumqayıt" klubundan müdafiəçi Azər Salahlı ilə yarımmüdafiəçi Kamal Mirzəyev 1994-cü ildə dünyaya gəliblər. Azər də müqavilə ilə "Qarabağ"ın futbolçusudur və icarə əsasında "Sumqayıt"da çıxış edir.

"Neftçi"dən qapıçı Rəşad Əzizli də "sarı it ili"ndə dünyaya gəlib. Onunla cari mövsümün ilk yarısında komanda yoldaşı olmuş, qış fasiləsində "Keşlə"yə keçən Məqsəd İsayevin də bu il 24 yaşı tamam olur.

"Keşlə"dən yalnız yarımmüdafiəçi Fuad Bayarmov 1994-cü il təvəllüdlüdür.

"Kəpəz"in doğum tarixi "sarı it ili"nə təsadüf edən nümayəndələri ön planda olan futbolçular deyil. Belə ki, qapıçı Ruzi Qiyaslı ilə yarımmüdafiəçi Əli Əliyev daim ehtiyatda qalır, müdafiəçi Azad Kərimov isə əsas heyət üzvü sayılmır. Malili yarımmüdafiəçi Samba Dialo isə qış fasiləsində komandanın heyətindən kənarlaşdırılıb.

"Səbail"də "sarı it ili"nin təmsilçisi bütün klublardan çoxdur - 7 futbolçu. Söhbət qapıçı Emil Balayev, müdafiəçilər - hollandiyalı Stati Ayron, litvalı Egdaras Jarskis, Murad Musayev, Kamal Qurbanov, yarımmüdafiəçi Seymur Əsədov və hücumçu Raul Yaqubzadədən gedir.

Topaz Premyer Liqasının hazırkı baş məşqçiləri arasında doğum tarixi "sarı it ili"nə təsadüf edənlər yoxdur. Hərçənd, cari mövsümün ilk yarısında beləsi olub. 60 illik yubileyini qeyd edəcək Zaur Svanadze "Keşlə"dən, ondan 12 yaş kiçik olan Elxan Abdullayev "Neftçi"dən ayrılıb. Sonuncunu müvəqqəti əvəzləyən həmyaşıdı Elşad Əhmədov da bu vəzifədə uzun müddət qala bilməyib.

*Rahib Sahiboğlu*

## "Kimin ağlına gələrdi ki..."

***"Qarabağ" klubunun Çempionlar Liqasındakı (ÇL) çıxışı Rusiya mətbuatının da diqqətini çəkib. Bu ölkədə nəşr olunan həftəlik "Futbol" jurnalının internet versiyası qitənin ən nüfuzlu klub turnirinin qrup mərhələsində diqqət çəkən ən maraqlı məqamları 10 fakt halında yayımlayıb.***

Maraqlıdır ki, həmkarlarımızın qeyd etdiyi məqamların arasında "Qarabağ"ın sürpriz çıxışı, "Atletiko"nu büdrətməsi və Ağdam təmsilçisinin qapıçısı İbrahim Şehiçin turnirin qrup mərhələsinin ən çox seyv edən qapıçısı olması da yer alıb.

Məqalənin müəllifi İqor Yeqorov ölkə çempionumuzun çıxışını belə təsvir edib: "Qarabağ" hələ avrokubokların əsas mərhələsi başlamamışdan möcüzəyə imza ataraq ÇL-in qrup mərhələsinə vəsiqə qazanmışdı. Kimin ağlına gələrdi ki, Azərbaycan klubu "Atletiko" ilə iki dəfə heç-heçə edəcək, hətta onların qapıçısı bu mərhələdə hamıdan çox seyv edəcək? "Qarabağ"ın qapıçısı İbrahim Şehiç artıq uzun müddətdir ki, Azərbaycan çempionatında özünü yaxşı tərəfdən göstərərək Bosniya və Hersoqovina millisinin heyətində dəvət alır.

2016/17-ci il ÇL mövsümü isə Şehiçin şəxsi karyerası baxımından benefisi oldu. Onun komandası "Çelsi", "Roma" və "Atletiko"ya qarşı yaxşı müdafiə olunarkən, qapıçı da digər bütün həmkarlarından daha çox top qaytardı. İbrahim cəmi 6 oyunda 35 dəfə qapısını real qoldan xilas etdi. "Maribor"lu Yasmin Handanoviç, MOİK-in üzvü İqor Akinfeyev və "Şaxtyor"un "çərçivə qoruyucusu" Andrey Pyatov öz komandasına bosniyalı qapıçıdan daha az kömək ediblər".

Qeyd edək ki, "Qarabağ" Çempionlar Liqasının qrup mərhələsində keçirdiyi 6 oyunda 2 xal toplayıb.

## Yığmamız mövqeyini qorudu



***FİFA-nın milli komandalar üçün reytinq cədvəli açıqlanıb. 2017-ci ilin son siyahısında planetin 211 yığması yer alıb.***

Ötən ayla müqayisədə siyahıda bəzi dəyişikliklər baş verib. Bu azsaylı mövqe fərqləri, əsasən, Avropada keçirilən matçlarla bağlıdır.

Qeydə alınan dəyişikliklər Azərbaycan millisinin mövqeyinə təsir etməyib. Yığmamız 281 xalla ötən reytinq cədvəlindəki mövqeyini qoruyub - 117-ci yer. Bu, Qurban Qurbanovun yığmamıza baş məşqçi təyinatının rəsmiləşməsindən sonra ilk FİFA reytinqidir. Q. Qurbanov fəaliyyətini 117-ci sıradan başlayıb. Heç bir matç keçirməyən millimizin qonşuları yerdəyişmələrə məruz qalıb. Belə ki, Vyetnam və Ruanda komandamızı geridə qoyubsa, Nikaraqua və KXDR aşağı yuvarlanıb.

Dünyanın ən güclü 10 komandasının mövqeyində isə heç bir dəyişiklik olmayıb.

Qonşu Türkiyə yığması isə 42-ci yerdə qalıb. "Ay-ulduzlular"ın 735 xalı var.

Millimizin 2018-ci ildə qarşılaşacağı dəqiqləşən ilk komandadan Gürcüstan millisinin də mövqeyi dəyişməz qalıb. 322 xalla qonşularımız 2017-ci ili 104-cü sırada başa vurub.

| | |
|---|---|
| *1 (1). Almaniya* | *1602* |
| *2 (2). Braziliya* | *1483* |
| *3 (3). Portuqaliya* | *1358* |
| *4 (4). Argentina* | *1348* |
| *5 (5). Belçika* | *1325* |
| *6 (6). İspaniya* | *1231* |
| *7 (7). Polşa* | *1209* |
| *8 (8). İsveçrə* | *1190* |
| *9 (9). Fransa* | *1183* |
| *10 (10). Çili* | *1162* |
| ***...117 (117). Azərbaycan*** | ***281*** |
| *...118 (119). Namibiya* | *274* |
| *...119 (103). Nikaraqua* | *273* |
| *...120 (121). Yəmən* | *268* |

# Transfer xəbərləri



## 2018-ci ilin ilk "ulduzları"

Yanvar ayının ilk günündən klublar transferlərini rəsmən bəyan etməyə başlayıblar. Qış fasiləsində ulduz transferi çox gözlənilməsə də, artıq bir neçəsi həyata keçib.

Aylardır "Barselona" azarkeşlərinin gözlədiyi transfer həyata keçib. İspanlar Filip Koutinyonu heyətinə qatıb. Futbolçu üçün "Liverpul" klubuna 120 milyon nağd, əlavə bonuslarla birlikdə isə 160 milyon avro ödənəcək. Koutinyo ilə isə 5.5 illik müqavilə imzalanıb. Futbolçunu heyətinə qatmaq istəyən növbəti komanda 400 milyon avro ödəməlidir. Bununla da, Braziliya millisinin yarımmüdafiəçisi həmyerlisi Neymar (222 milyon) və Mbappedən (180 milyon) sonra dünyanın ən bahalı 3-cü oyunçusu ünvanına sahib olub.



Ən diqqətçəkən transferlərdən biri də Vircil van Diykin yüksək məbləğ qarşılığında "Sauthempton"u "Liverpul"a dəyişməsi olub. "Atletiko"nun hələ mövsümün əvvəlində anlaşdığı "Çelsi"nin hücumçusu Dieqo Kostanın keçidi də, nəhayət ki, rəsmiləşib. "Beşiktaş"ın hücumçusu Cenk Tosun "Everton"a keçib. Türkiyə millisinin hücumçusu üçün Liverpul təmsilçisi "qara qartallar"a 28 milyon avro ödəyəcək. Futbolçu ilə 4.5 illik müqavilə imzalanıb və Cenk "Everton"da illik 4 milyon avro qazanacaq. Qeyd edək ki, bu transfer türk futbol tarixinin ən bahalı keçidi olub.

Almaniya millisinin hücumçusu Sandro Vaqner "Bavariya"ya üz tutubsa, digər alman hücumçu Mario Qomes "Volfsburq"dan "Ştutqart"a yollanıb.

Avropanın bir neçə nəhəng klubunun maraq dairəsində olan Lukas Lima Braziliyada klub dəyişməklə kifayətlənib.

**Qış fasiləsinin hələlik ən səs-küylü 10 transferi**

1. Filip Koutinyo: "Liverpul"dan "Barselona"ya - 160 milyon avro
2. Vircil van Diyk: "Sauthempton"dan "Liverpul"a - 85 milyon avro
3. Dieqo Kosta: "Çelsi"dən "Atletiko"ya - 66 milyon avro
4. Cenk Tosun: "Beşiktaş"dan "Everton"a - 28 milyon avro
5. Sandro Vaqner: "Hoffenhaym"dan "Bavariya"ya - 13 milyon avro
6. Gilyermo Arana: "Korintians"dan "Sevilya"ya - 10 milyon avro
7. Karlos Vela: "Real Sosyedad"dan "Los Anceles Qalaksi"yə - 5 milyon avro
8. Mario Qomes: "Volfsburq"dan "Ştutqart"a - 3 milyon avro
9. Domoqoy Vida - "Dinamo"dan (Kiyev) "Beşiktaş"a - azad agent
10. Lukas Lima: "Santos"dan "Palmeyras"a - azad agent.

## Millimizin futbolçusu "Qəbələ"də

Qış hazırlıqlarına yanvarın 5-də start verən "Qəbələ" klubu heyətdə komplektləşdirmə işlərini davam etdirir. "Qırmızı-qaralar" hələlik rəsmən Təmkin Xəlilzadəni heyətinə cəlb edib. Milli komandanın futbolçusu ilə 2,5 illik müqavilə bağlanıb.

"Qəbələ" daha bir neçə futbolçu transfer etmək niyyətindədir. Xüsusilə də, Aqil Məmmədovun gedişindən sonra ehtiyat qapıçı variantı üzərində düşünən klub bu istiqamətdə axtarışları artırıb. Komanda daha çox əsas çərçivə qoruyucusu Dmitri Bezotosnı ilə rəqabət apara biləcək gənc qapıçılar üzərində düşünür. Hələlik konkret adlar məlum olmasa da, yeni oyunçunun da əcnəbi olacağı gözlənilir.

Bundan başqa, baş məşqçi Roman Qriqorçuk müqavilə ilə "Qəbələ"yə məxsus olan, mövsümün ilk yarısını icarə əsasında "Zirə"də keçirmiş Yusif Nəbiyevin komandaya qayıtmasını istəyir. O, gənc futbolçunu Antalyadakı təlim-məşq toplanışında sınayacaq.

"Qəbələ"də qış fasiləsində bir neçə futbolçu da tərk edib. Şotlandiyalı yarımmüdafiəçi Endi Hallideyin müqaviləsi qarşılıqlı razılaşma əsasında ləğv edilib və o, keçmiş komandası "Reyncers"ə geri dönüb.

Şotlandiyalı futbolçu Azərbaycanı tərk edəcək son oyunçu olmayacaq. Mərkəz müdafiəçisi Deyv Bulthuis də karyerasını ölkəmizdə davam etdirməkdə maraqlı deyil. O, menecerinə yeni klub tapmasını, "Qəbələ" rəsmilərinə isə ayrılmaq istədiyini bildirib. Klub onun ayrılmasına mane olmaq istəməsə də, təbii ki, yekunda hər şey danışıqların nəticəsindən asılı olacaq. Ancaq böyük ehtimalla, Deyv üçün Premyer Liqa karyerasını bitmiş hesab etmək olar.

Qeyd edək ki, "Qəbələ"nin qış hazırlığı iki mərhələdən ibarət olacaq. Komanda əvvəlcə yanvarın 5-dən 17-nə, ardınca isə yanvarın 21-dən fevralın 3-nə qədər Antalyada hazırlaşacaq.

## Bombardir "Sumqayıt"a keçdi

"Sumqayıt" klubu dövrələrarası fasilə zamanı növbəti transferini reallaşdırıb. Klubdan aldığımız məlumata görə, "gənclik şəhəri" təmsilçisi "Qəbələ"nin futbolçusu Ülvi İsgəndərovu heyətinə qatıb.

Sumqayıt klubu 21 yaşlı oyunçunu icarəyə götürüb. Razılığa əsasən, gənc hücumçu qarşıdakı il yarım ərzində "Sumqayıt"ın formasını geyinəcək. O, yeni klubunda 70 nömrəli forma altında çıxış edəcək.



Qeyd edək ki, Ülvi İsgəndərov cari mövsümdə "Qəbələ"nin əvəzedici komandasının heyətində 13 qol vuraraq, bombardirlər yarışına başçılıq edir.

## Ağdam təmsilçisi rumıniyalı müdafiəçi ilə maraqlanır

"Dinamo" (Buxarest) klubunun müdafiəçisi Steliano Filipin danışıq apardığı Azərbaycan klubunun adı bəlli olub. Rumıniya mətbuatının yaydığı məlumata görə, 23 yaşlı futbolçu karyerasını "Qarabağ"da davam etdirə bilər.

"Dinamo" rəhbərliyi hələ bir müddət əvvəl Filipi 400 min avroluq təzminat haqqı qarşılığında başqa kluba buraxmağa razı olduğunu açıqlamışdı. Buxarestlilər müdafiəçinin sol cinahında oynayan Filipin məvacibinin yüksək olmasından narazıdırlar.



Azərbaycan, Türkiyə və İtaliyanın II liqasından təklif aldığı bildirilən futbolçunun ölkəmizə köçmək şansı daha yüksək dəyərləndirilir. "Qarabağ" azarkeşləri sosial şəbəkədə Filipə mesaj göndərərək, onun Ağdam klubu ilə müqavilə imzalamasını istəyiblər.

Qeyd edək ki, 2012-ci ildən "Dinamo"nun şərəfini qoruyan Steliano Filip 2015-ci ildən bəri Rumıniya millisinin heyətində 7 oyun keçirib.

## Sançes üçün 25 milyon funt-sterlinq

"Arsenal" rəhbərliyi komandanın aparıcı oyunçularından olan Aleksis Sançesin transfer qiymətini açıqlayıb. "The Mirror" nəşrinin yaydığı məlumata görə, "topçular" müqaviləsinin müddəti yayda bitəcək hücumçunu indi satmaq istəyirlər. Bunun üçün Sançeni istəyən klub londonlulara 25 milyon funt-sterlinq ödəməlidir.



"Arsenal"ın baş məşqçisi Arsen Venger açıqlamasında indiki məqamda Sançesə görə heç bir təklifin gəlmədiyini bildirib. Belə davam edəcəyi təqdirdə, Aleksis yayda azad agent kimi istədiyi kluba keçmək hüququna yiyələnəcək.

Qeyd edək ki, əvvəllər "Udineze" və "Barselona" klublarında da oynamış Aleksis Sançes 2014-cü ildən "Arsenal" üzvüdür.

Yeri gəlmişkən, "Arsenal"ın digər hücumçusu Olivye Jiru karyerasını Türkiyədə davam etdirə bilər. "Fənərbaxça" klubu 31 yaşlı hücumçunun xidmətində maraqlıdır.

Təcrübəli futbolçu DÇ-2018-də iştirak edəcək Fransa yığmasının heyətində yer almaq üçün daha çox oynayacağı kluba keçməyi planlaşdırır. "Fənərbaxça" rəhbərliyi də məhz bundan istifadə etmək arzusundadır. İstanbul təmsilçisi artıq Jiru ilə danışıqlara start verib.

Qeyd edək ki, Olivye Jiru 2012-ci ildən "Arsenal"ın formasını geyinir.

## Ağırlıqqaldırma üçüncü dəfə sınaq qarışısında qalacaq

Beynəlxalq Olimpiya Komitəsi (BOK) 2020-ci ildə Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarının proqramında dəyişiklik etmək istəyir. Belə ki, ağırlıqqaldırma idman növünün dördilliyin ən mötəbər yarışının proqramından çıxarılması müzakirəyə olunacaq. Buna son illər ərzində baş vermiş dopinq qalmaqalları səbəb olub. Bu səbəbdən ali qurum Beynəlxalq Ağırlıqqaldırma Federasiyasına (IWF) vaxt verib. IWF 2018-ci ilin yayına qədər dopinqlə mübarizə proqramını təqdim etməlidilər.

Belə ki, Pekin və London Yay Olimpiya Oyunlarının təkrar yoxlanılması zamanı 40 atletin qanında istifadəsi qadağan edilən dərman preparatı tapılıb. Bundan sonra ciddi islahatlar etməli olan federasiya Tomaş Ayanı yenidən qurum rəhbəri seçib.

Hazırda 9 ölkə yarışdan kənarlaşdırılıb ki, onlar da Anahaymda keçirilən dünya çempionatında iştirak edə bilməyib.

Qeyd edək ki, 1896-cı ildən Olimpiya proqramına salınan ağırlıqqaldırma 1908-ci və 1912-ci illərdə də Olimpiada proqramından çıxarılıb.

## Avrokuboka növbəti təyinat

Avropa Voleybol Konfederasiyası (CEV) azərbaycanlı hakim Fuad Ağayevə növbəti təyinat göndərib. Həmyerlimiz "Çelenc Cup"ın 1/16 final mərhələsində iş başında olacaq. Belə ki, Fuad Ağayev Krasnodar şəhərində qadın voleybolçular arasında keçiriləcək "Dinamo" (Rusiya) - "Qraz" (Avstriya) matçında baş hakim funksiyasını yerinə yetirəcək. Yanvarın 12-də təşkil olunacaq görüşdə Fuad Ağayevə almaniyalı Matias Evald köməklik edəcək.



Bu komandalar arasında keçirilən ilk matçda krasnodarlılar 3:2 hesabı ilə qələbə qazanıblar.

Qeyd edək ki, təmsilçimiz bu mövsüm kişi voleybolçular arasında keçirilən "Çelenc Cup"da da ədaləti qoruyub.

## Saridan Mursaqulov 65 illik yubileyini qeyd edir

***Azərbaycanın tanınmış alpinistlərindən biri və ölkə idmanında özünəməxsus dəsti-xətti olan Saridan Ramiz oğlu Mursaqulovun 65 yaşı tamam olur. Saridan Mursaqulov 1953-cü il yanvarın 10-da Gürcüstanın Marneuli rayonunda müəllim ailəsində dünyaya göz açıb. Uşaq yaşlarından idmana böyük marağı onu Azərbaycan Bədən Tərbiyəsi və İdman İnstitutuna gətirib*.**

Ömrünün 55 ilini idmana həsr edən Saridan Mursaqulov alpinizm idman növü ilə 1975-ci ildən məşqul olmağa başlayıb. Tanınmış idmançımız dünyanın bir sıra yüksək dağlarını fəth edərək, Azərbycan bayrağını dalğalandırıb. Yubilyar Azərbaycanda ilk dəfə olaraq 1987-ci ildə Həmkarlar İttifaqı nəzdində Alpinist-turist Klubu yaradıb və bu günə kimi həmin kluba rəhbərlik edir. Saridan Mursaqulovun iştiraki və rəhbərliyi ilə Azərbaycan ərazisindəki bir neçə adsız zirvələr fəth edilərək ad verilib. Bunlardan "Azəri", "Azadlıq", "Şəhidlər", "Gənclik" kimi zirvələrin adlarını çəkmək mümkündür.



Saridan Mursaqulov 1998-ci ildə ümumilli lider Heydər Əliyevin 75 illik yübileyi şərəfinə yüksəkliklərə "Heydər zirvəsi", 1999-cu ildə türk xalqının banisi Atatürkün şərəfinə "Atatürk zirvəsi", 2001-ci ildə olimpiyaçılarımızın şərəfinə "Olimpiya" zirvəsi, 2003-cü ildə isə Qırğıstan Respublikasının dağlarında "Azərbaycan" zirvəsi adlarının verilməsinə nail olub. Dünyanın ən məşhur zirvələri -Elbrus, Kazbek, Ağrıdaq, Damavend, Savalan, Monblan, Tatra, Lenin, Xan - Tenqri və s. zirvələri fəth edən yubilyar Azərbaycan alpinizmi tarixinə öz adını yazdıra bilib.

Saridan Mursaqulov 1991-2000-ci illərdə Azərbaycan Alpinist Federasiyasının prezidenti vəzifəsində çalışıb. 65 yaşını qeyd edən tanınmış idmançı yorulmaq bilmədən bu gün də öz idman fəaliyyətini davam etdirir, uşaq və gənclərin alpinizm idman növünün sirlərinə yiyələnməsində yaxından iştirak edir.

Yubilyar ölkə idmanında göstərdiyi xidmətlərinə görə dövlətimiz tərəfindən müxtəlif fəxri adlara və "Tərəqqi" medalına layiq görülüb. O, "Bədən tərbiyəsi və idman əlaçısı", "Bədən tərbiyəsi və idman fəxri işçisi" adlarını alıb, Əməkdar məşqçidir. Fəxri Bədən Tərbiyəsi və İdman Xadimi olan Saridan Mursaqulov Türkiyə, Gürcüstan, Rusiya, Qırğıstan, İranın fəxri diplom və fərmanları ilə təltif olunub.

Yubilyarı qəzetimizin çoxsaylı oxucuları adından təbrik edir, uzun ömür və uğurlar arzulayırıq.

## Təmsilçilərimiz "Bodrum Kış Trofesi" yarışlarında iştirak ediblər



Azərbaycan Yelkənli İdman Federasiyasının (AYİF) "Optimist" və "Laser" sinfi üzrə komandalarının üzvləri "Bodrum Kış Trofesi" yarışlarında iştirak ediblər. Türkiyə Yelkən Federasiyasının təşkil etdiyi yarışda idmançılar dörd gün boyunca orta hesabla 5 saat dənizdə qalaraq yarışıblar.

Yarışda 17 ayrı yelkən klubundan və 3 ölkədən idmançılar iştirak ediblər.

## Useyn Bolt meydanda top qovacaq

Tanınmış Yamayka atleti, 8 qat Olimpiya çempionu Useyn Bolt karyerasına futbolçu kimi davam edəcəyini bildirib.

Məşhur idmançı deyib: "Mart ayında "Borussiya" (Dortmund) klubu ilə məşqlərə başlayacağam. Əgər xoşlarına gəlsəm, karyerama futbolçu kimi davam edəcəyəm".

Useyn Bolt oyundan artıq anladığını da qeyd edib: "Çoxlu sayda matç izləmişəm. Oyunu artıq daha yaxşı anlayıram. Oynayacağım mövqeni hələ seçməmişəm, hər kəsin fikirinə uyğun hərəkət edəcəyəm".



## Əfsanə yığmaya qayıdır

Hindistan şahmatının əfsanəsi Vişvanatan Anand Şahmat Olimpiadasında iştirak etməyə qərar verib. 15-ci dünya çempionu bu ilin payızında təşkil olunacaq yarışda Hindistan yığmasının şərəfini qoruyacaq. Sonuncu dəfə 2006-cı ildə analoji yarışda çıxış edən Anand 12 ildən sonra Olimpiadada mübarizə aparacaq. Təcrübəli qrossmeyster bunu sürətli şahmat üzrə dünya çempionu kimi mükafatlandırılarkən açıqlayıb.



Qeyd edək ki, Olimpiada 2018-ci ildə Gürcüstanın Batumi şəhərində təşkil olunacaq.

## Matçda tribuna çökdü

Küveytdə keçirilən futbol qarşılaşmasında faciə baş verib. Oman və Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) milliləri arasında keçirilən Körfəz Kubokunun final oyununun sonunda tribuna çöküb. Nəticədə 40 azarkeş yaralanıb.

Küveyt baş nazirinin köməkçisi Enes Saleh xəstəxanalara yatırılan yaralıların vəziyyətinin yaxşı olduğunu bildirib.

Qeyd edək ki, 90 dəqiqəsi qolsuz başa çatan oyunda Oman penalti vuruşları ilə 5:4 qalib gələrək Körfəz Kubokunu ikinci dəfə qazanıb.

## Ən zəngin oyunçu kimdir?

Dünyanın ən zəngin oyunçusu Faiq Bolkiahdır. Müasir dövrdə dünya futbolunun ən böyük ulduzları Lionel Messi və Kristianu Ronaldo böyük sərvətə malikdirlər. Amma 19 yaşlı Faiq Bolkiah 20 milyard dollarlıq var-dövləti ilə onları ötüb keçib. Hazırda dünyanın ən zəngin futbolçusu olan Faiq Amerikanın Los-Anceles şəhərində dünyaya göz açıb. O, Bruney Sultanı Həsən Əl-Bolkiahın yaxın qohumudur.



## Roje Federer və Serena Uilyams ilin ən yaxşı idmançıları seçiliblər

Beynəlxalq İdman Mətbuatı Assosiasiyası (AIPS) 2017-ci ilin ən yaxşı idmançılarının adlarını açıqlayıb. Səslərin 19,94 faizini toplamış isveçrəli tennisçi Roje Federer ilin ən yaxşı idmançısı hesab edilib. O, "Böyük dəbilqə"nin iki turnirinin - Avstraliya açıq çempionatının və Uimbldon turnirinin qalibi olub. İkinci yeri Madridin "Real" komandasının və Portuqaliya yığmasının futbolçusu Kriştianu Ronaldu (16,94%), üçüncü yeri "Barselona" və Argentina yığmasının oyunçusu Lionel Messi (11,39%) tutub.



Qadınlar arasında ilin ən yaxşı idmançısı adına amerikalı tennisçi Serena Uilyams (13,99%) layiq görülüb. 2017-ci ildə o, Avstraliya açıq çempionatında qalib gəldikdən sonra hamilə olduğu üçün yarışlarda iştirak etməyib. İkinci yeri Macarıstandan üzgüçü Katinka Hossu (13,56%), üçüncü yeri amerikalı yüngül atlet Feliks Elisson tutub.

Xatırladaq ki, Avropa Klublar Assosiasiyası və Avropa Futbol Agentlikləri Assosiasiyası tərəfindən təsis olunmuş "Globe Soccer Awards"un açıqlamasına görə, Ronaldu 2017-ci ilin ən yaxşı futbolçusu hesab edilib.

## Keçmiş futbolçu ölkə prezidenti seçildi

1990-cı illərdə "Monako", "PSJ" və "Milan" klublarının şərəfini qorumuş məşhur futbolçu Corc Vea Liberiyanın prezidenti seçilib.



Bu barədə Liberiya Milli Seçki Komissiyası ölkədə keçirilən seçkilərin ikinci turunda səslərin 98,1 faizini saydıqdan sonra məlumat yayıb.

Keçmiş futbolçu ikinci turda böyük səs çoxluğu ilə qalib gəlib. Corc Vea səslərin 61,5 faizini qazanaraq rəqibi vitse-prezident Jozef Boakaini üstələyib (38,5 faiz).

## İlk qadın referi

Almaniyalı hakim Bibiana Steinhaus 2 mövsümdən sonra Çempionlar Liqasında əsas hakim kimi meydana çıxacaq.

Bu il Bundesliqada oyunları idarə etməyə başlayan qadın referinin Çempionlar Liqasında iştirakı barədə UEFA ilə görüş keçirilib. Onun 2 mövsümdən sonra ÇL-də meydanda ədaləti təmsil edəcəyi barədə qərar verilib. Bibiana Steinhaus futbol oyunlarını idarə edən ilk qadın hakim statusu adı olacaq.

## Mayk Tayson torpaq sahəsi alıb




Əfsanəvi amerikalı boksçu Mayk Tayson ABŞ-nın Kaliforniya ştatında marixuana yetişdirmək üçün 16 hektarlıq torpaq sahəsi alıb.

Mayk Tayson əldə etdiyi ərazidə marixuana plantasiyası ilə yanaşı emal zavodu, mağaza və yeni sortların istehsalı ilə məşğul olmaq istəyənlər üçün məktəb açacaq.

Qeyd olunur ki, əfsanəvi boksçu marixuananın tibbdə istifadəsinin tərəfdarıdır.

## Məşhur oyunçu cəzalandırıldı

İtaliyanın "Roma" klubu belçikalı yarımmüdafiəçisi Raca Nainqqolanı cəzalandırıb. Buna sözügedən futbolçunun yeni il gecəsi idmançıya yaraşmayan hərəkətlərə yol verməsi səbəb olub. Belə ki, belçikalı yarımmüdafiəçi həmin gecə alkoqol qəbul edib, siqaret çəkib, üstəlik, qeyri-etik ifadələr işlədib. Ən maraqlısı isə onun bütün bunları "Instagram" hesabından canlı yayımla etməsi olub.

Azarkeşlərin reaksiyası onu bir neçə saat sonra videonu silməyə, üzr istəməyə məcbur etsə də, bu, heç nəyi dəyişməyib. Nainqqolanın bu cür davranışı klubu tərəfindən sərt qarşılanıb. Paytaxt təmsilçisi futbolçunu 100 min avro cərimə edib.

## Türkiyənin futbol klubu bağlanır

Türkiyənin "Qaziantepspor" klubu fəaliyyətini dayandırıb. Bu barədə klubun rəsmi saytı açıqlama yayıb. Açıqlamada bildirilir ki, bu qərar klubun üzləşdiyi maddi çətinliklərlə əlaqədardır.

Qeyd edək ki, 1969-cu ildə yaradılan Qaziantep təmsilçisi ötən mövsüm Superliqanı tərk edib. Hazırda isə komanda birinci divizionda sonuncu yerdədir.

Ələmdar Məmmədov, Hafiz Hüseynxanlı, Fazil Hadıbəyov, Cəfər Hümbətov və Murad Fərzəliyev Mobil İsmayılova, bacısı

**Gülnarə xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

Olimpiya dünyası

**Baş redaktor:**
**M.Q.Fərzəliyev**

**Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168**

**AZƏRBAYCAN BEYNƏLXALQ BANKI**
**H/H AZ79IBAZ38090019449333849204**
**M/H 0137010002944**
**KOD 805250**
**VÖEN 1500306421**

**Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**
**Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.**

**Qiyməti 20 qəpikdir.**
**Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.**

**DİQQƏT!**
**Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.**

***E-mail:***
**olimpiya_dunyasi@mail.ru**
***Ünvan:***
**Bakı şəhəri,**
**2-ci sülh döngəsi, 2a.**
***Tel.:*** **564-90-49; 564-90-54; 564-74-19**